**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "TİBBİ TURİZMİN AZƏRBAYCANDA BİZNESİN İNKİŞAFINA TƏSİRİNİN TƏDQİQİ" mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Əlizadə Eldar Adil**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**"__ _" ______________ 20__-ci il**

# "TİBBİ TURİZMİN AZƏRBAYCANDA BİZNESİN INKİŞAFINA TƏSİRİNİN TƏDQIQI" mövzusunda

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060409-Biznesin idarə edilməsi

**İxtisaslaşma:** Biznesin təşkili və idarə edilməsi

**Qrup:** 112

**Magistrant:**
**Əlizadə Eldar Adil oğlu**
**__________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d. Aslanova Afaq Fərhad qızı**
**__________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**___________________imza**

**Kafedra müdiri :**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**__________________ imza**

**BAKI-2020**

## Elm andı

Mən,Əlizadə Eldar Adil oğlu and içirəm ki, “Tibbi turizmin Azərbaycanda biznesin inkişafına təsirinin tədqiqi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına, istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## TIBBI TURIZMIN AZƏRBAYCANDA BIZNESIN INKIŞAFINA TƏSIRININ TƏDQIQI


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Qloballaşma və texnologiyanın sürətli inkişafı, digər tərəfdən sərhədlərin açılaraq turistlərin gün keçdikcə ölkələrə gedişinin artması və təbii olaraq xidmət və tələblərin çeşitlənməsinə yol açmışdır. Bu çeşitliliyi yaradan turizmin bir növü də sağlamlıq turizminin bir alt qolu tibbi turizmdir. Tibbi turizm xüsusilə son 10-20 ildə daha cəlbedici ve önəmli hala gəlmişdir.Hazırda tibbi turizm bir çox ölkənin əsas diqqət ayırdığı sahələrdəndir.Belə ki, onlar bu sahədən həm yüksək gəlir götürür həm də bu sahənin inkişafı həmin ölkələrdə əlaqəli başqa sahələrin də inkişafına şərait yaradır.**

**Tədqiqatın məqsədi: Tədqiqatın məqsədi Azərbaycanda tibbi turizmin potensialını müəyyənləşdirmək və bu potensiala çatmağn yolların araşdırmaqdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiyamızda tədqiqat metodu kimi empirik tədqiqat metodlarından anket metodu seçilib.Bu metodda 2 tibb müəssisəsi seçildi. Bu tibb müəssisələrində həm həkimlərə həm də xəstələrə suallar verməklə müəssisələrin hansı amillərə görə uğur qazandıqları və hansı amillərə görə narazıçılıqlarla qarşıaşdıqların müəyyənləşdirməyə çalışdıq.**

**Tədqiqatın informasiya bazası: Bu dissertasiya işinin hazırlanmasının əsasını son illərdə yazılmış dünya və ölkə alimlərinin, mütəxəssislərinin, iqtisadçıların tibbi turizmin inkişaf problemlərinə , tibbi turizmin tarixinə həsr edilmiş materialları, tədqiqatları, beynəlxalq jurnallarda dərc olunan məqalələri və digər əhəmiyyətli materiallar təşkil etmişdir. Həmçinin dissertasiya işi yazılarkən Azərbaycan Respublikası qanunları, Azərbaycan Respublikası Prezidentinin sərəncam və fərmanları da informasiya bazası kimi götürülmüşdür. Bunlarla yanaşı, Azərbaycan Respublikasının tibbi turizm sferasının vəziyyətini səciyyələndirən statistik göstəricilər də öyrənilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri:Tədqiqat zamanı tibbi turizm sahəsində araşdırma çatışmazlıqları ilə və tibbi turizm müəssisələrində tibbi turistlərin statistikalarında çatışmazlıqlarla qarşılaşdıq.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın nəticəsi olaraq tibbi turizmin inkişafına nail olmaq üçün bu sahəyə investisiya qoyuluşunu artırmaq, ixtisaslı kadrlar yetişdirmək üçün bu sahəyə aid ixtisaslar yaratmaq lazımdır.Həmçinin müalicəsonrası səyahət turlarını təkmilləşdirmək lazımdır.**

**Tədqiqatın tətbiq oluna biləcəyi sahələr: Dissertasiya işinin tətbiq sahələri tibbi müəssisələr,turizm müəssisələri və turizmyönümlü universitetlər və ixtisasların fənlərin nəzərdə tutmuşuq.**



***Açar sözlər: tibbi turizm,sağlamlıq turizmi,empirik tədqiqat metodu,tibbi müəssislər,səyahət turları.***

# THE INVESTIGATION OF THE INFLUENCE OF MEDICAL TOURISM TO BUSINESS DEVELOPMENT IN AZERBAIJAN

## SUMMARY

**The actuality of the subject: In this dissertation we research medical tourism within health tourism and the applications of medical tourism in Azerbaijan.Medical tourism has been one of the main business fields in some countries and these countries earn highly from this world.Medical tourism can be widely determine as, especial medicinal therapy and travel tours that are organized in a cooperation of tourism industry for the patients who need artisan surgical and other therapy styles.**

**Purpose of research:The purpose of the research on medical tourism is to study the potential of medical tourism in our country,to make comparisons,to analyze the current level of the field that we are studying.**

**Used research methods: Present situation of the medical establishments is learnt by method of questionnaire that being from methods of empiric investigation also investigate. Two medical establishments were elected and we defined in which degree that influences to result.**

**The information base of research: The information base of research consists of : organized materials, researches, articles published in international journals and other important materials of world and national scientists, specialists, economists devoted to the problems of development of medical tourism.Also, the laws of the Republic of Azerbaijan, decrees and orders of the President of the Republic of Azerbaijan were taken as an information base when writing the dissertation**

**Restrictions of research: İn deeply investigation of field that we learn we face lack of investigation material about situation in Azerbaijan.**

**İnvestigation results and scientific innovation:İn results,for improve medical tourism need to increase investment to this field,to create special qualification and subjects that related this field.Also need evaluate current situation and to manage effectively.**

**Application areas: The application areas are medical institutions,universities and tourism institutions**

***Keywords: Medical tourism,health tourism,travel tours,empiric investigation,tourism institutions.***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **İEO** | İnkişaf etmiş ölkələr |
| **İEOÖ** | İnkişaf etməkdə olan ölkələr |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **WHO** | Dünya Sağlamlıq Təşkilatı |

## MÜNDƏRİCAT

**GİRİŞ**.......................................................................................................8

**I FƏSİL: AZƏRBAYCANDA TIBBI TURIZMIN ELMI-MƏDƏNI MAHIYYƏTI VƏ BIZNESƏ TƏSIR ISTIQAMƏTLƏRI ................................. 11**

1.1. Tibbi turizm anlayışı və onun inkişaf istiqamətləri.......................................... 11

1.2.Tibbi turizm xidmətinin növləri və funksiyaları................................................ 15

1.3. Tibbi turizm inkişafının xarici təcrübəsi......................................................... 17

**II FƏSİL: AZƏRBAYCANDA TIBBI TURIZMIN MÖVCUD VƏZIYYƏTI VƏ SOSIAL IQTISADI QIYMƏTLƏNDIRILMƏSI ................................................ 26**

2.1. Tibbi turizmin inkişaf dinamikası,regional yerləşmə xüsusiyyətləri................. 26

2.2. Tibbi turizmin qiymətləndirilməsi (Naftalan timsalında) .................................. 37

2.3. Tibbi turizmin inkişaf etdirilməsində dövlət siyasəti........................................ 42

**III FƏSİL: AZƏRBAYCANDA TIBBI TURIZMIN INKIŞAF ETDIRILMƏSI YOLLARI** ..................................................................................................... 50

3.1. Azərbaycanda tibbi turizm xidmətinin qiymətləndirilməsi nəticələri ................ 50

3.2. Tibbi turizm sahəsində investisiya siyasətinin inkişaf etdirilməsi yolları .......... 68

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ......................................................................... 72

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SIYAHISI**..................................................7

**ƏLAVƏLƏR** ........................................................................................... 78

Cədvəllərin siyahısı ....................................................................................... 81

Qrafiklərin siyahısı ........................................................................................ 83

Şəkillərin siyahısı ......................................................................................... 83

# GİRİŞ

**Mövzunun aktuallığı**: Qloballaşma və texnologiyanın sürətli inkişafı, digər tərəfdən sərhədlərin açılaraq turistlərin gün keçdikcə ölkələrə gedişinin artması və təbii olaraq xidmət və tələblərin çeşitlənməsinə yol açmışdır. Bu çeşitliliyi yaradan turizmin bir növü də sağlamlıq turizminin bir alt qolu tibbi turizmdir. Tibbi turizm xüsusilə son 10-20 ildə daha cəlbedici ve önəmli hala gəlmişdir. Çünki, günümüzdə tibbituristlərin öz ölkələrində sağlamlıq qayğılarının artması və ölkələrindəkimüalicə xidmətlərinin uzun gözləmə vaxtından dolayı, tibbi turistlərinmüalicə xərcləri daha aşağı ölkələri seçim etməsinə səbəb olmuşdur.Tibbi turizm anlayışı, müalicə məqsədli gələn tibbi turistlərə sağlamlıq qurum və quruluşları tərəfində həkim və uzman doktorların tərəfindən planlı olaraq gerçəkləşən fəaliyyətdir.Bu fəaliyyətlər:tibbi check-up, sağlamlıq yoxlanışı, estetik cərrahiyə, orqan nəqli, xərçəng müalicəsi, protez taxmalar, diş, göz, diyaliz müalicəsi və s. Digər təriflərə görə tibbi turizm turistlərin müalicə məqsədini daşıyan, bundan əlavə sağlamlıqlarını qorumaq, istirahət etmək, zamanı düzgün qiymətləndirmək kimi fəaliyyətləri ifadə edir.Tibbi turizm tibbi xidmətlərdən əlavə əyləncə, istirahət, sağlamlıq və müalicəni bir araya gətirməktədir.Dolayı olaraq tibbi turizm anlayışı insanların müalicə məqsədli başqa ölkələrə səyahət etməsini ya da tibbi turistlərin müalicə məqsədli uyğun qiymətdə ölkə xaricinə səyahəti olduğu deyilə bilər.Tibbixidmətgöstərən sağlamlıq qurumunun beynəlxalq standartlara uyğun olması önəmli göstəricidir.Tibbi turizmdə ən çox istifadə olunan sahələr arasında ürək əməliyyatı, estetik cərrahiyyə, transplantasiya, üz,göz, sinə, diyaliz müalicələri, saç əkdirmə kimi müalicələr var.Hindistan, Tayland, Sinqapur və bənzər ölkələr ürək-damar cərrahiyyəsi və ortopedik cərrahiyyə sahəsində daha məşhurdur.Bu ölkələr arasında Hindistan tibbi turizmdəki daha aşağı qiymətləriylə digər ölkələrlə müqayisədə daha cəzbedici mövqedədi.Bilindiyi kimi sənayeləşmiş ölkələrdə sağlamlıq xidmətlərinin qiyməti çok yüksəkdir.Əcnəbi tibbi turistlər, ölkələrindəki sağlamlıq xidmətlərinin bahalı olması və sığorta üçün uzun gözləmələr səbəbilə fərqli ölkələri seçim etmək məcburiyyətində qalmaqdadılar.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Tibbi turizmin müstəqil sahə kimi araşdırılması yalnız son zamanlarda geniş vüsət almışdır. Tədqiqat zamanı müəllif Ə.Əlirzayev, B.Ə.Bilalov və digər müəlliflərin yazılarında olan fikir və müddəalara etibar etdildi və eyni zamanda bu sahənin hələ də genişaraşdırma tələb edən tərəfləri var.Tədqiqatın əsasını mövzu ilə bağlı yerli və dünya alimlərinin elmi əsərləri, yerli və xarici internet resursları, statistika, informasiya-analiz agentliklərin materialları, yerli və xarici mətbuatda dərc edilmiş rəsmi məlumatlarvə digər rəsmi internet saytlarında verilmiş məlumatlar təşkil edəcək.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tibbi turizm mövzusunda aparılan tədqiqatın məqsədi ölkəmizin tibbi turizm potensialını araşdırmaq, müqayisələr aparmaq,araşdırdığımız sahənin hazırki vəziyyətini təhlil etməkdir. Dissertasiyanın məqsədinə çatmaq üçün tədqiqat və iş quruluşunun müəyyənləşdirən vəzifələr qoyulur:

- tibbi turizmin inkişaf tarixi və ölkənin ümumi iqtisadi inkişafında tibbi turizmin potensial rolunun müəyyənləşdirilməsi;
- tibbi turizm xidmətinin növlərinin və funksiyalarının aydınlaşdırmaq;
- tibbi turizmin inkişafının xarici təcrübəsini müəyyənləşdirmək.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti tibbi turizmin yerli biznesə təsirinin araşdırılmasıdır.Tədqiqatın predmeti tibbi turizmin biznesə təsir yollarının müəyyənləşdirilməsidir. Tədqiqatımızda biz ölkəmizin təbiətindən tibbi turizmdə səmərəli istifadə yolların araşdıracağıq və eyni zamanda tibbi müəssisələrə və sağlamlıq mərkəzlərinin tibbi turizmə nə dərəcədə uyğun olduğu və daha da uyğunlaşdırma üsullarını təhlil edəcəyik.

**Tədqiqat metodları:** Empirik tədqiqat metodlarından olan anket metodu ilə tibb müəssisələrinin müasir vəziyyəti araşdırılaraq öyrənilir, həmçinin onların əsas problemləri, çətinlikləri, müəyyən ediləcək. 2 tibbi müəssisə seçildi və həmin müəssisələrdə həm həkimlərə həm də xəstələrə anket formasında müxtəlif suallar verildi.Reqressiya üsulu ilə də cavabların nəticəyə nə dərəcədə təsir etdiyini

müəyyənləşdirdik. Bu vasitə ilə həm kənardan görulə bilən həm də görülə bilməyən əsas çətinlik və problemlər öyrənılərək tədqiq edilir.

**Tədqiqatın informasiya bazası:** Bu dissertasiya işinin hazırlanmasının əsasını son illərdə yazılmış dünya və ölkə alimlərinin, mütəxəssislərinin, iqtisadçıların tibbi turizmin inkişaf problemlərinə , tibbi turizmin tarixinə həsr edilmiş materialları, tədqiqatları, beynəlxalq jurnallarda dərc olunan məqalələri və digər əhəmiyyətli materiallar təşkil etmişdir. Həmçinin dissertasiya işi yazılarkən Azərbaycan Respublikasının qanunvericiliyi, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları da informasiya bazası kimi götürülmüşdür. Bunlarla yanaşı, Azərbaycan Respublikasının tibbi turizm sferasının vəziyyətini səciyyələndirən statistik göstəricilər də öyrənilmişdir.

**Tədqiqatın məhdudiyyəti:** Ara.dırma zamanı tibbi turizm sahəsinin inkişaf etdirilməsi və tibbi müəssisələrin gələn tibbi turistlərin qeydə alınmaması səbəbindən geniş məlumatların olmaması ilə rastlaşdıq.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyin müəyyən edən əsas amillər respublikda tibbi turizmin inkişafı üçün şərtlər müəyyənləşməsi, ən başlıcası tibbi müəssisələrdə gələn tibbi turistlərin dəqiq qeydə alınması və tibbi müəssisələrin bu sahəyə diqqət ayırması və inkişaf etdirməyə önəm verməsidir.Daha sonra tibbi turizmin inkişafına mane olan mənfi amillər aşkarlanmasıdır.Bunlar əsasən bəzi tibbi müəssisələrin şərait çatışmazlığı, turistlər üçün qalma yeri təşkil edə bilməmələri və dil problemi səbəbindən onlarla yaxşı ünsiyyət qura bilməmələridir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Apardığımız araşdırmalar və keçirdiyimiz anket sayəsində ölkəmizdə tibbi turizm sahəsində anlayışımız oldu və tibbi müəssisələrə baş çəkməklə də bu müəssisələrin tibbi turizm sahəsində üstünlük və çatışmazlıqlarını müəyyənləşdirməyə çalışdıq.Tətbiq sahələri kimi isə turizm müəssisələri,tibbi müəssisələr,universitetlər nəzərdə tutulub.

# I FƏSİL. AZƏRBAYCANDA TIBBI TURIZMIN ELMI-MƏDƏNI MAHIYYƏTI VƏ BIZNESƏ TƏSIR ISTIQAMƏTLƏRI

## 1.1.Tibbi turizm anlayışı və onun inkişaf istiqamətləri

Sağlamlıq ifadəsi və sağlamlıq mövzusunda aparılan işlər yaxın vaxtlardan başlanmayıb.Bu ifadənin yaranması tarixi çox keçmiş vaxtlara gedib çıxır.Sağlamlıq turizminə yəni sağlamlıq səyahətinə yönəldən səbəblərin başında isə itirilmiş sağlamlığı təkrar qazanmaq və ya qorumaq gəlir.Keçmiş vaxtlarda insanlar təbii qidalanmaqla və daha təbii yaşayış tərzinə sahibkən, günümüzdə sənayeləşmə nəticəsində cəmiyyət həm qidalanma həm də yaşayış tərzi baxımından dəyişikliklə qarşılaşmış vəziyyətdədir. İnsanların ən çox diqqət etdikləri, həyatları üçün diqqət ayırdıqları ünsürlərin ən başında sağlamlıqlarının gəldiyi deyilə bilər.İnsanların itirdikləri sağlamlıqlarını geri qazanmağı və ya daha sağlam hala gəlməyi istəmələri onları sağlamlıq turizminə yönəldir.Sağlamlıq turizminin ən önəmli özəlliyi onun mövsümi xarakter daşımamasıdır.Bu həm turistlər üçün həmçinin turizm müəssisələri üçün bir fürsətdir.Keyfiyyətli tibbi texnologiyaya, kadr ehtiyatına və tibbi xidmətlərin düzgün qiymətləndirildiyi ölkələr tibbi turizmdən ciddi şəkildə gəlir əldə edə bilər.Sağlamlıq turizminin makroiqtisadi və mikroiqtisadi özəllikləri bunlardır:

a) Mikroiqtisadi özəlliklər:
   - Sağlamlıq turizmi tələbi artırır.Sağlamlıqlarına diqqət edən insanların tələb potensiyalı yüksəkdir.
   - Sağlamlıq turizmi bazarında çox sayda şirkətlər və müştərilər mövcuddur.Qiymətlərin azalıb, keyfiyyətin artması ilə çox sayda sağlamlıq turisti bundan faydalana biləcək.
   - Sağlamlıq turizmində göstərilən xidmət və məhsullar bazar qiymətlərindən təsirləndiyindən tələbi elastikdir.

b) Makroiqtisadi özəlliklər:

- Sağlamlıq turizminin fəaliyyət istiqamətləri çeşitlənməkdə və genişlənməkdədir.
- Böyük ölçüdə ətraf mühitin təmizliyi ilə əlaqədar cəhdlərin artması, yeni termal su qaynaqlarına aid yerlərin tapılması və bu yerlərdə yeni termal müəssisələrin yaradılması sağlamlıq turizmini genişləndirməkdədir.

Müasir dövrdə insanlar düzgün qidalanmamaqla bərabər daha əsəbi və daha yorğun həyat tərzi keçirirlər.Ətraf mühitdəki bir çox amillər insan sağlamlığına, psixologiyasına mənfi təsir göstərir.Xarici mühitin səs-küylü olması,tıxac və stres buna misal ola bilər.Dolayı olaraq insan bütün bu kirlilik və məşğulluqdan bir az da olsa uzaqlaşaraq dincəlmək və sağlamlığını qorumaq üçün yaşadığı yerdən fərqli məkanlara, şəhərlərə ya da xarici ölkələrə səyahət edirlər.Yəni bir mənada insanların bu davranışları ya da sağlamlıq turizmi fərdlərin sağlamlıq problemlərinə əlac tapmaq, sağlamlığını qorumaq və dincəlmək üçün yaşadığı yerdən uzaqlaşaraq fərqli yerlərə getməsidir.Bu məkanların hansı yerlər olduğu və xüsusiyyətlərinə toxunmadan işimizin bu hissəsində sağlamlıq turizmi termini izah olunacaq, daha sonra fərdlərin sağlamlıq problemlərinə əlac tapmaq, sağlamlığını qorumaq və dincəlmək üçün müraciət etdikləri sağlamlıq turizmi növlərinə baxılacaqdır.İşimizin davamında əsas mövzumuz olan tibbi turizm üzərində dayanılacaqdır.Sağlamlıq turizmi termininə aid bir çox tərifləri mövcuddur.Buna görə də sağlamlıq turizminə aid yəni bu terminin tərifi ilə bağlı bəzi qarışıqlıq vardır.İlk əvvəl bu anlayışları qısa şəkildə açıqlamaqda fayda var.Bilindiyi kimi turizm sağlamlığı anlayışı ümumi mənasıyla turistlərin sağlamlığı, xidmət göstərən sağlamlıq təşkilatı, təşkilatda olan işçilərin sağlamlığı, mövcud olduğu bölgə yəni ətraf mühit sağlamlığı və cəmiyyət sağlamlığı olaraq tərif oluna bilər.Turist sağlamlığı isə turistin səyahət zamanı ehtiyac duyduğu yardım, təcili müalicə və turistin başına gələ biləcək hər cür qəza və xəstəliklərdən qorunma tədbirləridir.Sağlamlıq turizminə isə sadə və ümumi mənasıyla insanların müalicə məqsədilə səyahəti deyə bilərik.Ancaq sağlamlıq turizmi anlayışını bəziləri termal turizm bəziləri də tibbi məqsədli ölkəxarici səyahət olaraq görməkdədir.Sağlamlıq turizmi sağlamlığın

qorunması, müalicə edilməsi məqsədilə xarici ölkəyə səyahət etməsi və ən az 24 saat qalaraq sağlamlıq və turizm imkanlarından istifadə edilməsidir.Bu məqsəd çərçivəsində xidmət göstərən və səyahət edən insana sağlamlıq turisti deyilir.Sağlamlıq turizmi və sağlamlıq turizminin əsas səbəbləri, bəzi ölkələrə görə ərazisində mütəxəssis kadrların çatışmazlığı ya da yoxluğu, fərdlərin müalicə məqsədindən əlavə istirahət etmə arzusu, ölkələrində sağlamlıq fəaliyyətlərinin qiymətinin yüksək olması, insanların istirahət üçün yeni mühiti kəşfetmə ya da fərqli iqlimdə istirahət arzusu ola bilər. Bundan əlavə, bəzi fərdlər etmək istədiyi əməliyyatın ölkəsində bilinməsini istəməzlər, dolayı olaraq əməliyyatı ya da müalicələrini gizlilik çərçivəsində etdirmək üçün fərqli ölkələri seçim edə bilərlər.Sağlamlıq turizminin keçmişinə baxdığımızda bu təbii qaynaqların şəfa niyətinə istifadəsi yeni fakt olmayıb, tarixi qədimlərə dayandığı görülür.Qədim mədəniyyətlərdə yaşayan insanların, müqəddəs məbəd hamamlarını şəfa məqsədilə istifadə etdikləri bilinir. Misal olaraq M.Ö. 4000-ci ildə Şumerler qaynar suların ətrafında ən qədim sağlamlıq tikintilərini inşa ediblər.Tunc dövründə (M.Ö. 2000), indiki İsveçrədə müqəddəs Moritz olarak bilinən təpə qəbilələri təbii qaynaq suların xeyirlərini o vaxtlarda kəşf ediblər.Dəmir baxımından zəngin mineral qaynaqlarda duş almışlar və suyu şəfa niyyətində istifadə etmişlər. Suyu içərkən tunc qablarını istifadə etmişlər. Bu tunc qablarının eynisi Fransa və Almanyada da tapılmışdır.Qədim Yunanların tarixinə baxdığımızda sağlamlıq turizmi şəbəkəsinin təməlini atan ilk və qədim bir mədəniyyət olaraq ortaya çıxmaqdadır. Tibbin tanrısı olaraq bilinən Asklepiosun inşa edilen asklepios məbədi dünyanın ilk sağlamlıq mərkəzi olaraq bilinir və dünyanın dörd tərəfindən gələn insanlar xəstəliklərinə çarə tapmaq üçün bu məbədə gedirlər.Dünyanın dörd tərəfindən gələn insanlar xəstəliklərinə çarə tapmaq üçün bu məbədə girdi.Hindistanda isə alternativ tibbin və yoqanın populyarlaşmasıyla sağlamlıq turizmi yavaş-yavaş inkişaf etməkdədi . Ancaq 5000 il öncəsində belə alternativ müalicənin faydalarından yararlanmaq istəyən xəstələr Hindistanı axın olaraq ziyarət edirlər.Roma mədəniyyəti dövründə su qaynaqları duş almaq sağlamlıq tikintiləri olmaqdan əlavə, sosial toplantıların baş tutduğu məkanlar idi. Roma

mədəniyyəti çöktükdən sonra sağlamlıq turizminde Asiya ölkələri daha önə çıxmıştır.Misal olaraq, Yaponiyada önsen adlı minerallı su qaynaqları, şəfaverici xüsusiyyətibütünölkələrdə məşhurlaşmış, bunu fərq edən döyüşçü qövmlər döyüş sonrasında müalicə məqsədli yaxşılaşmaq üçün bu qaynaqlardan yararlanmışlar.Sağlamlıq anlayışını Asiya ölkələrində bu 3 qrupda dəyərləndirmək mümkündür:

- Şimali Asiya mədəniyyəti və Çin Tibb anlayışı;
- Hind mədəniyyəti və Budist Tibb anlayışı;
- İslamın Türk Tibbi

8-ci və 14-cü əsrlərdə göytürklərin yerini alan uyğurlar sağlamlıq və müalicəyə önəm verirdi. Uyğurlar qədim zamanlarda yolçu ve kasıb insanlara pulsuz sığınacaqlarında xeyriyyə qurumları yaratmış və xəstəxanalar qurmuşdur. Uyğurlar müalicə üçün ümumən bitki və heyvan qaynaqlı maddələrdən çeşidli dərmanlar hazırlayaraq müalicələrində istifadə edirdilər. İslamdan öncə, Orta Asiyada yaşayan türklərin yaşayış tərzində dini inanclar ve bitkilərlə müalicə çox yayılmışdı. O zamanlarda xəstələri müalicə edən adamlara emşi deyilirdi. Bitkilərlə müalicə üsulu günümüzə qədər davam etməkdə olduğu söylənə bilər. Bitkilərlə müalicə bir tərəfdən alternativ tibb olaraq da bilinməktədir.14-cü əsrdən 17-ci əsrə kimi intibah vaxtlarında Avropa və İngiltərədə sadəcə sənət və mədəniyyət inkişaf etməklə qalmamış, sağlamlıq turizmi mövzusunda önəmli inkişaf qeyd edilmişdir.Beləliklə sağlamlıq sahəsinin tarixi keçmişinə baxtığımızda sağlamlıq turizmi anlayışının elə də yeni bir ifadə olmadığını görürük. Sadəcə qədim dövrlərlə yeni zamanın arasındaki fərq, qədimdən mövcud olan təbii su qaynaqlarının müasir texnoloji vasitələrlə birləşməsiylə cəmiyyətə təqdimidir(Əlirzayev Ə,2015,səh 65).

## 1.2.Tibbi turizm xidmətinin növləri və funksiyaları

Yuxarıda da dediyimiz kimi sağlamlıq turizmi insanların sağlamlıq məqsədilə daimi yaşadıqları yerdən fərqli yerlərə səyahətidir.İşimizin bu hissəsində səyahət edilən məkan və xidmətlərin nələr ola biləcəyi, daha doğrusu sağlamlıq turizmi növləri və göstərdiyi xidmətlər yer almaqdadır.Sağlamlıq turizmi bu 3 kateqoriyada qruplaşdırılır:

- Termal turizm
- Qoca və əngəlli turizmi
- Tibbi turizm

Termal turizm**.** Termal turizminin açıqlaması isti mənasına gələn “thermos” sözündən götürülüb tarixi keçmişi çox qədimlərə gedib çıxır. Romalılar dövründə yaralı əsgərlərin yaralarını yaxşılaşdırmaq məqsədilə inşa etdikləri hamamlardakı müalicəyə o dövrlərdən sudan gələn müalicə deyilirdi. Zamanında xalq hamamları üçün istifadə edilən “term” sözü daha sonra suyun alındığı yer olarak istifadəyə keçmişdir. Yəni, “thermal” anlayışı isti sular üçün, “termique” anlayışı suyun istiliyini bildirmək üçün və “termalizm” isə sağlamlıq məqsədilə istifadə edilən təbii isti sular üçün istifadə edilən terminlərdir. Ümumi mənasıyla termal turizm minerallı termal su hamamı, palçıq hamamı kimi fərqli metodların yanında psixoterapiya, reabilitasiya, dieta kimi dəstəkləyici müalicələrin birləşməsiylə meydana gələn turizm hərəkətidir. Azərbaycan müalicəvi əhəmiyyəti olan mineral və termal sularla zəngin bir ölkə sayılır. Ümumi götürsək Azərbaycan ərazisində 1500-dən çox mineral və termal su mənbələri, müalicəvi əhəmiyyətə malik olan 4 palçıq vulkanı və 1 əsas neft mənbəyi var. Termal turizmin digər mövsümlük turizmlərlə müqayisədə üstünlüyü bu şəkildə
sıralana bilər:

- Termal turizm mövsümlük xüsusiyyəti ortadan qaldırmaqdadır;
- Termal turizm şaxələndirilərək fərqli bazarlara girə bilir;
- Məşğulluq yaradır;

Tibbi turizm.Qloballaşma və texnologiyanın sürətli inkişafı, digər tərəfdən sərhədlərin açılması turistlərin gün keçdikcə ölkələrə gedişinin artması və təbii olaraq xidmət və tələblərin şaxələnməsinə yol açmışdır.Bu şaxələnməni yaradan turizmin bir növü də sağlamlıq turizminin bir alt qolu olan tibbiturizmdir.Tibbi turizm xüsusilə son 10-20 ildə daha cəlbedici ve önəmli hala gəlmişdir. Çünki, günümüzdə tibbi turistlərin öz ölkələrində sağlamlıq qayğılarının artması və ölkələrindəki müalicə xidmətlərinin uzun gözləmə vaxtı olması səbəbindən, tibbi turistlərin müalicə xərcləri daha aşağı ölkələri seçim etməsinə səbəb olmuşdur. Tibbi turizm anlayışı, müalicə məqsədli gələn tibbi turistlərə sağlamlıq qurum və quruluşları tərəfindən həkimlər tərəfindən planlı olaraq gerçəkləşən fəaliyyətdir.Bu fəaliyyətlər: tibbi yoxlanış , sağlamlıq yoxlanışı, estetik cərrahiyə, orqan nəqli, xərçəng müalicəsi, protez taxmalar, diş, göz, diyaliz müalicəsi və s.Digər təriflərə görə tibbi turizm turistlərin müalicə məqsədini daşıyan, bundan əlavə sağlamlıqlarını qorumaq, istirahət etmək, zamanı düzgün qiymətləndirmək kimi fəaliyyətləri ifadə edir.Tibbi turizm tibbi xidmətlərdən əlavə əyləncə, istirahət, sağlamlıq və müalicəni bir araya gətirməktədir.Dolayı olaraq tibbi turizm anlayışı insanların müalicə məqsədli başqa ölkələrə səyahət etməsini ya da tibbi turistlərin müalicə məqsədli uyğun qiymətdə ölkə xaricinə səyahəti olduğu deyilə bilər.Tibbi turizmdə xidmət göstərən sağlamlıq quruluşunun dünya standartlarına uyğun xidmət göstərməsi çox önəmlidir.Tibbi turizmdə ən çox istifadə olunan sahələr: Ürək əməliyyatı, estetik cərrahiyyə, transplantasiya, üz,göz, sinə, diyaliz müalicələri, saç əkdirmə kimi müalicələr var.Tibbi turizm nöqteyi-nəzərdən turistlər 5 fərqli qrupa ayrılır:

- Yalnız turist kimi.Getdikləri fərqli ölkə və ya şəhərlərdə hər hansı bir tibbi vasitədən istifadə etmədən təkcə tətil məqsədli turizm hərəkətinə qatılan insanlardır.
- Tətildə müalicə edilən turist.Səyahət zamanı xəstəlik və ya qəza keçirtdiyi üçün tibbi xidmətlərdən yararlanan insanlardır.Bu qrupdakı insanlar ümumən təcili xəstələr qrupuna aiddi.

- Tətil və müalicə məqsədli turistlər.Bu qrupa daxil olan turistlər getdikləri ölkəyə ilk əvvəl tətil məqsədli səyahət edərlər.Ancaq tətillərini keçirdikləri ölkədə bəzi narahatlıqlarını aradan qaldırmaq üçün tibbi xidmətlərdən istifadə edirlər. Qısa olaraq tətil və sağlamlıq xidmətlərini eyni zamanda istifadə edən turistlərdir.
- Tətil edən xəstələr.Bu qrupa daxil olan tibbi turistlərin əsas məqsədi getdikləri ölkədə müalicə olunub xəstəliklərdən yaxa qurtarmaqdır.Bu turistlərin səyahət məqsədi yalnız müalicə olmaqdır və istirahət kimi bir məqsədləri yoxdur.
- Sağlamlığını qorumaq və tətil məqsədli turistlər.Bu qrupun içində yer alan turistlər SPA, şəfalı sulardan yararlanaraq sağlamlıqlarını qoruyub daha yaxşı hala gətirməyi məqsədləyən və bundan əlavə tətil də edən turistlərdir.

### 1.3.Tibbi turizm inkişafının xarici təcrübəsi

Hindistan, Tayland, Sinqapur  və bənzər ölkələr ürək-damar cərrahiyyəsi və ortopedik cərrahiyyə sahəsində daha məşhurdur.Bu ölkələr arasında Hindistan tibbi turizmdəki daha aşağı qiymətləriylə digər ölkələrlə müqayisədə daha cəzbedici mövqedədi.Bilindiyi kimi sənayeləşmiş ölkələrdə sağlamlıq xidmətlərinin qiyməti çok yüksəkdir.Əcnəbi tibbi turistlər, ölkələrindəki sağlamlıq xidmətlərinin  bahalı olması və sığorta  üçün uzun gözləmələr səbəbilə fərqli ölkələri seçim etmək məcburiyyətində qalmaqdadılar. Dünya miqyasına baxıldığında “Patient Beyond Borders, 2015” jurnalında dərc edilənməlumatlara görə ortalama xərclə  tibbi turizm istiqamətində  önə çıxan ölkələr bunlardır:

- Hindistan- 75%
- Malayziya- 70%
- Türkiyə- 55%
- Kosta Rika- 55%
- Meksika- 50%
- Braziliya- 28%

Tibbi turizmin inkişafını təmin edən faktorlar:

- Qiymət fərqi - Tibbi turizmin inkişafını stimullaşdıran ən önəmli faktorlardan biri müalicədə qiymət fərqidir.Misal üçün ürək ya da onkoloji əməliyyatlar bir ölkədə bahalı olduğu halda digər ölkədə nisbətən ucuz ola bilir.Bu vəziyyət təbii olaraq xəstələrin fərqli ölkələri seçməsinə səbəb ola bilir.
- Gözləmə vaxtının uzun olması-Xüsusilə inkişaf etmiş ölkələrdə uzun gözləmə vaxtı xəstələri yerlər axtarmasına və təbii olaraq digər ölkələri seçmələrinə səbəb olur.Misal üçün prostat əməliyyatı üçün inkişaf etmiş ölkələrdə 6 ay gözləmək lazım gəldiyi halda Hindistanda bu vaxt 10 gündür.Taylandda,Türkiyədə ya da ölkəmizdə bu analizlər də daxil 3 günə yekunlaşa bilir.
- Yaşlı əhali-Dünya əhalisi getdikcə yaşlanmaqda olduğu görülməktədir. Dünyada hazırda yaşlı əhalinin faizi yüzdə 20 olduğu halda, bu faizin 2050 ilində %50-ə çatacağı təxmin edilməkdədir. Bu durum isə, yaşlıların, baxım və müalicə tərəfindən sağlamlıq və tibbi turizm qapılarını açmışdır. Bu vəziyyət eyni zamanda sağlamlıq tibbi turizm üçün önəmli bazar yaratmaqdadır.
- Gizlilik-Bəzi sağlamlıq turistləri üz, burun, cinsiyyət dəyişimi əməliyyatı və ya asılılıq müalicələri kimi vəziyyətlərdə gizlilik istədiklərindən bunları öz yaşadıqları ölkədə etmirlər.

Tibbi turizmin inkişafını məhdudlaşdıran bir çox problemlər var.Bunların əsasında etibar və keyfiyyət problemləri gəlir.Nümunə kimi göstərsək inkişaf etməkdə olan ölkələrdə edilən müalicənin inkişaf etmiş ölkələrdə olan müalicə və əməliyyatlarla müqayisədə nə dərəcədə bərabər və keyfiyyətli ola biləcəyi şübhələri var.Bundan əlavə tibbi turizmin inkişafını məhdudlaşdıran başqa səbəblər var.Bunlar:

- Tibbi turistlərin müalicə vaxtının sonunda ölkələrinə qayıtdıqdan sonra xəstələrə nəzarətdə çətinlik.
- Əcnəbi tibbi turistlərə görə həkimlərin xarici dil bilməməsi, tərcüməçilərin tapılmaması və ictimaiyyətlə əlaqələr şöbəsində çatışmazlıq.
- Viza problemləri

Tibbi turizmi məhdudlaşdıran vasitələrin qarşısının alınması, bu sektorda olan əksikliklərin aradan qaldırılması və keyfiyyətin artırılması, bu keyfiyyətin davamlı olması üçün həkimlərin, xarici dil bilənlərin təcrübəsi və bilik səviyyəsi çox önəmlidir.Tibbi turizmin faydalı tərəflərindən əlavə qarşılaşa biləcək bəzi riskləri də vardır. Xatırlayırıqsa keçən illərdə dünyanın bəzi ölkələrində donuz qripi, quş qripi kimi xəstəliklər gündəmə gəlmişdi.Bu və bənzər xəstəliklər beynəlxalq sağlamlıq turizmi üçün böyük təhlükə yaratmaqdadır.Bu və bənzəri xəstəliklərdən əlavə tibbi turizmdə başqa önəmli risklər də mövcuddur.Bunlar:

- Keçici xəstəliklər
- Bəzi ölkələrdə inkişaf etmiş ölkələrdəki xidmət keyfiyyəti ilə müqayisədə daha aşağı xidmət səviyyəsi
- Gözlənilməyən məsrəflərin tibbi turistin sağlamlıq vəziyyətinə ciddi bir şəkildə təsir etməsi, yəni gözlənilən əməliyyatdan daha böyük əməliyyatların lazım olması və əməliyyat sonrası baxımın eyni ölkədə edilə bilinməməsi riski.
- Təcrübəsiz və ya kifayət qədər təcrübəyə sahib olmayan həkimlər.
- Tibbi turizmdə edilən bəzi səhvlərin nəticəsində beynəlxalq sahədə sağlamlıq sistemində ölkənin prestijini itirməsi
- Əcnəbi həkimlərin yer dəyişdirməsi.Misal olaraq həkimlərin tibbi turizmi inkişaf edən ölkələri seçməsi
- Xarici dil və ünsiyyət çətinlikləri
- İnformasiya çatışmazlığı riski

- Əlavə ödəmələr

Dünyada gedən ümumi proseslərə nəzər salsaq insanların sağlamlıqlarına göstərdikləri diqqət və dünya ölkələrinin tibbi turizmi inkişaf etdirməyi planlaşdıran fəaliyyətlərin artdığı görülür.Xüsusilə Asiya ölkələrindəki tibbi turizmin uğuru sağlamlıq sektorundakı qlobal diqqəti və rəqabəti artırmaqdadır.Bu rəqabətin dünya ölkələrinin yatırımlarını da artırdığı şübhəsizdir.Dolayı olaraq indiki dövrdə tibbi turizmin əsas bölgəsi Asiya ölkələridir.Misal olaraq Filippin turistlərin ehtiyacını qarşılaya bilmək üçün yeni hava limanı inşa etmiş və sağlamlıq xidməti göstərən müəssisələrdə xarici dilə ağırlıq verilmişdi.Dubayda isə sağlamlıq turizmində Orta Şərqdə irəli çıxmaq üçün “sağlamlıq şəhəri” mərkəzi açılıb.Hindistan Küveyt, Şri-Lanka, Nigeriya kimi ölkələrlə tibbi turizm sahəsində ikili əməkdaşlıqlar edərək tibbi turizmi inkişaf etdirir.Malayziya isə digər ölkələrlə rəqabət edə bilmək üçün xidmət qiymətlərini aşağı salmış və hava limanlarına tibbi turizmlə bağlı məlumat mərkəzləri yerləşdirmişdir.Bu sektorun cəzbedici tərəfi bir tərəfdən tətil etmək digər tərəfdən müalicə və əməliiyat etmək imkanıdır.Avropa ölkələrində tibbi turizmin vəziyyəti. Avropa ölkələri birlik halında yaşasa da hər ölkənin sağalamlıq məsələsində özünə xas olan haqları, qanunları, şərtləri var. Öz qayda və şərtləri çərçivəsində yaşayan Avropa ölkələrindəki sağlamlıq xidmətləri keyfiyyət baxımından yüksək səviyyədə və qiymət olaraq çox olduqca bahalıdır.Sağlamlıq xidmətlərində keyfiyyət nə qədər yüksək olsa da qiymətin bahalı olmasına görə xarici ölkələri seçən xəstələr az deyil.Ümumi olaraq İngiltərə, İrlandiya və Skandinaviya ölkələrində sağlamlıq müəssisələrində müalicə üçün gözləmə vaxtı 1 ildən çox ola bilir.Almaniyada isə gözləmə vaxtı bu ölkələrlə müqayisədə aşağıdı.Almaniya və Norveç arasındakı razılaşmaya görə Norveç Almaniyaya mütəmadi olaraq ildə 300 xəstəsini göndərir.Avropada sağlamlıq müəssisələrində həkim sayı baxımından ilk 3 ölkə Almaniya, Fransa və İtaliyadır.Statistikaya görə Almaniyada həkim sayı 319 000-dir.Almaniyadan sonra həkim sayı baxımından ən böyük ölkələr İtaliya, Fransa, İngiltərə, İspaniya və digərləridir.Statistikalara görə Almaniya, Fransa, İngiltərədə təcrübəçi həkimlər geniş

yayılıb.İtaliyada daxili orqan həkimləri İspaniyada cərrahiyyə həkimləri digər həkimlərə görə daha çoxdur.Avropa ölkələrində xəstəliklərə görə ortalama qalış günü baxımında ən yüksək rəqəm Finlandiyadadır: 11 gün.Bu statistika Çexiyada 10 gün, Xorvatiyada 10 gün, Almaniyada 9 gün, Macarıstanda 9 gün təşkil edir.Ən aşağı rəqəm isə Niderland, Fransa və İrlandiyadadır: 5 gün.

Türkiyə. Türkiyə də öz xidmət keyfiyyəti və tibb işçilərinin təhsil səviyyəsinə görə son illər çox irəliləyib. Türkiyədəki tibbi müalicələrin qiyməti Qərbi Avropa ölkələriylə müqayisədə nəzərəçarpacaq dərəcədə münasibdir. Bu səbəbdən hər il minlərlə turist tibbi müalicə məqsədi ilə Türkiyəni gəzir. Türkiyə xüsusən saç köçürülməsi əməliyyatı üçün böyük bir mərkəzə çevrilir. Təxmini olaraq, 180 min turist 2018-ci ilin ilk yarısında Türkiyəyə sağlamlıq məqsədi ilə səyahət edib. 70% özəl klinika, 22% dövlət xəstəxanası və 8% universitet xəstəxanalarından istifadə edib.Ümumdünya Sağlamlıq Turizmi və Turist Sağlamlığı haqqında Əsasnamə 14 İyul 2017 tarixində qüvvəyə minmişdir. Bu yalnız müalicə üçün gələnlərə aiddir.Türkiyənin tibbi turizmdən əldə etmiş olduğu gəlir və ölkəyə gələn tibbi turistlərin ildən-ilə artması Türkiyənin tibbi turizmdə önəmli bir istiqamət olduğunun sübutudur.Türkiyədə özəl və dövlət xəstəxanaları tibbi turistlərlə münasibətə və onların ölkəyə daxil olduğu andan etibarən hər cür ehtiyacları ilə maraqlanmağa çalışıllar.Türkiyəyə müalicəyə gələn turist artıq xəstəxanay neə gedəcəyi, harda qalacağı, müalicədən əvvəl və ya müalicədən sonra harda istirahət edə biləcəyi barədə geniş məlumat əldə etmiş olur.Türkiyədə bu kimi işlərlə məşğul olmaq üçün özəl və dövlət xəstəxanalrının heyəti mövcud olur və tibbi turizmin inkişafı ilə əlaqədar bu heyət ildən-ilə genişlənir.

İsrail. İsrail tibbi turizm sahəsində məşhur bir yerdir. İsrailə çox sayda tibbi turist Avropadan, xüsusilə keçmiş SSRİ ölkələrindən, həmçinin ABŞ, Kipr,Avstraliya və Cənubi Afrikadan gəlir. Tibbi turistlər İsrailə əsasən sümük iliyi transplantasiyası, onkoloji və nevroloji terapiya, ortopedik müalicə, avtomobil və digər qəzaların bərpası da daxil olmaqla çeşidli cərrahi prosedur və müalicə səbəbi ilə gəlirlər.

**Qrafik 1: Türkiyəyə gələn tibbi turistlərin ölkələr üzrə sayı**




**Mənbə:** Türkiye Tibbi Turizm Dəyərləndirmə Hesabatı, 2013
http://dosyasb.saglik.gov.tr/Eklenti/535,turkiye-medikal-turizm-degerlendirme-raporu-2013pdf.pdf

İsrailin tibbi turizm üçün bir ərazi kimi məşhurluğu, yüksək keyfiyyətli tibbi xidmətə sahib olmağı ilə yanaşı bir çox inkişaf etmiş ölkələrə nisbətdə daha az tibbi xərclərə malikdir. İsrail əsasən kiprlilər arasında sümük iliyi transplantasiyası üçün bir məkan olaraq məşhurdur, çünki bu prosedur Kiprdə mövcud deyil. Amerikalılar arasında isə ortopedik prosedurlar üçün seçim obyektidir.Çünki İsraildəki ortopedik müalicənin dəyəri ABŞ-a nəzərən təxmini olaraq yarı qiymətədir.İsrail, QİÇS müalicəsi istəyən turistlər üçün xüsusilə məşhur bir məkandır. İsraildəki tibbi turistlər həm dövlət, həmçinin özəl xəstəxanalarına müraciət edirlər və bütün böyük İsrail tibb müəssisələrində tibbi baxımdan eyni dərəcədə yüksək standartlara cavab verən digər ölkələrdəki tibb müəssisələrinə nisbətən ucuz başa gələn tibbi turizm paketləri təklif olunur. 2014 - cü ildə ölkəyə hər il təqribən 50.000 tibbi turistin gəldiyi təxmin edilirdi.Həmin tibbi turistlərin yerli xəstələrdən fərqli güzəştli müalicə aldıqları haqqında informasiyalar var. Buna əlavə olaraq bəzi turistlər Ölü dənizdəki və Təbəriyyə gölü tibbi istirahət mərkəzlərini ziyarət etmək üçün İsrailə səfər

edirlər .Hal-hazırda Asiyada tibbi turizmdə ən çox seçilən ölkə olaraq bu 5 ölkə irəlidədir:

- Hindistan
- Malayziya
- Sinqapur
- Tayland
- Cənubi Koreya

Hindistan Asiya bölgəsində önə çıxan ölkələrdən biridir.Hindistanda tibbi turizmin inkişafında sadəcə Turizm Nazirliyi deyil, hökumət, özəl sektor, tur operatorlar, səyahət agentləri və otellər də dəstəkdədilər.Hindistan dünyanın bir çox ölkəsindən turist qarşılamaqdadır.Sağlamlıq araşdırmaları aparan Renub Research məlumatlarına görə Hindistana tibbi turizm məqsədli 63 ölkədən turist gəlməkdədir.Bu ölkələr: Amerika Birləşmiş Ştatları, Kanada, Argentina, Braziliya, Meksika, Avstriya, Belçika, Finlandiya, Fransa, Danimarka, Almaniya, Yunanıstan, İrlandiya, İtaliya, Hollandiya, Norveç, Portuqaliya, İspaniya, İsveç, İsveçrə, Çexiya, Macarıstan, Qazaxıstan, Polşa, Rusiya, Ukrayna, Misir, Keniya, Mavritaniya, Nigeriya, Cənubi Afrika Respublikası, Sudan, Tanzaniya, Bəhreyn, İraq, İsrail, Oman, Səudiyyə Ərəbistanı, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Yəmən, Əfqanıstan, İran, Maldiv, Nepal, Pakistan, Banqladeş, Şri-Lanka, Butan, İndoneziya, Malayziya, Myanma, Filippin, Sinqapur, Tayland, Vyetnam, Çin, Yaponiya, Avstraliya, Yeni Zellandiya. Bu ölkələrin tibbi turizm istiqaməti olaraq Hindistandanı seçnə səbəbləri müxtəlifdir.Hindistandakı tibbi turistlər üçün təklif edilən xidmətin Amerika Birləşmi. Ştatlarıyla müqayisədə çox ucuz olduğunu bilirik.Misal olaraq kosmetik cərrahiyyə ABŞ-da 20 000 dollar olduğu halda Hindistanda sadəcə 2000 dollardır. Qaraciyər transplantasiyası ABŞ-da 300 000 dollar olduğu halda, Hindistanda 55 000 dollardır.

Sümük iliyi transplantasiyası ABŞ-da 250 000 dollar, Hindistanda 35000 dollardır. Ürək əməliyyatı ABŞ-da 60 000 dollar, Hindistanda 6500

dollardır.Hindistanın tibbi turizm sektorunda tibbi turistlərə qiymət baxımından təklif etdiyi fürsət həqiqətən cəlbedicidir. Malayziya tibbi turizmdə önə çıxan ölkələrdən biridir. Malayziya da qiymət faktoruna görə ABŞ, Avropa ölkələri və digər yerlərdən tibbi turistlər cəlb edir.Malayziya təkcə qiymət amilinə görə yox, həm də keyfiyyətli xidmətinə görə seçilir. Malayziya Səhiyyə Nazirliyi sağlamlıq sektorunda ölkənin tanınma və inkişafıyla bağlı strateji planlar hazırlamaqda, gömrük işlərini asanlaşdırmaqda, viza alınmasını asanlaşdırmaqda və sağlamlıq turizminin inkişafına yönəlmiş ölkəxarici reklamlar hazırlamaqdadır.Renub Research-ə görə Malayziyaya ən çox tibbi turist göndərən ölkələr: Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, İndoneziya, Çin, Liviya, Nepal, Yaponiya, İran, Avstraliya, Hindistan, Sinqapur, Səudiyyə Ərəbistanı, Myanma, Filippin, Banqladeş, Almaniya, Fransa və s.Malayziyanın tibbi turizminin inkişaf tarixinə baxsaq ən çox artımın 2003-2013-cü illərdə olduğunu görərik. 2013-cü ildə ölkəni 800 000-ə yaxın turist ziyarət etdiyi halda 1-2 il içində bu rəqəm 1 000 000-a yaxın olmuşdur.Asiyada tibbi turizm sahəsində inkişaf edən digər ölkə Sinqapurdur. Sinqapur tibbi turizmdə önə çıxan ölkələrdən biri olub, sağlamlıq turizmi sahəsində xidmətə 2007-ci ildə addım atmışdır. Sinqapur hökuməti sağlamlıq və tibbi turizmin inkişafına çox önəm vermiş,qiymət və xidmət keyfiyyətilə turistləri cəzb etməkdədir.Bu ölkəyə hər il dünyanın hər tərəfindən turistlər gəlir.Bilindiyi kimi Sinqapurda biotibbi mühəndislik inkişaf etməkdədir. Sinqapurda tibbi turizm sahəsində geniş yayılmış müalicə növləri bunlardır: Kardiologiya, nevrologiya, pediatriya, cərrahiyyə, dializ.Sinqapur Beynəlxalq Xərçəng Mərkəzi Onkologiya sahəsində ixtisaslaşmış bir ölkə olub , Şərqi Asiyada liderlik etməkdədir. İşçilərini isə yeni texnologiyaları izləmələri və öyrənmələri üçün intensiv olaraq xaricə tibbi təhsilə göndərməkdədir.

Cənubi Koreya. Cənubi Koreyada tibbi turizmin inkişafına Turizm Nazirliyi, hökumət, özəl sektor, turoperatorlar, səyahət agentlikləri, otellər də dəstək göstərirlər.Cənubi Koreya dünyanın bir çox ölkəsindən turist qarşılamaqdadır.Cənubi Koreya qonşusu Şimali Koreyayla müqayisədə daha yaşıllıq bir ölkədir.Cənubi Koreya

elektronika, robotexnika sahəsində Asiyanın 4-cü böyük iqtisadiyyatına sahibdir.Tibbi turizm sahəsində Asiyanın ən tanınmış bölgələrindəndir.Cənubi Koreyada turistlər tərəfindən ən çox seçim edilən müalicə növləri bunlardır: onurğa, ortopediya, orqan nəqli, xərçəng müalicəsi, stomatologiya.Cənubi Koreya xərçəngə qarşı müalicədə Amerika və Avropa ölkələri ilə müqayisə edildikdə daha ön sıralarda olur.Bu sadəcə texnoloji tərəfdən deyil, keyfiyyətli xidmət tərəfdən seçilmək deməkdir.

**Qrafik 2 : Cənubi Koreyada illər üzrə tibbi turizm sektorunun artımı**




**Mənbə:** South Korea Medical Tourism Market Graphs,2013
http://www.slideshare.net/renubresearch/south-korea-medical-tourism-market-graphs,

Qrafikdə Cənubi Koreyaya ziyarət edən tibbi turistlərin illərə görə yüksəlişi görülür. Hər keçən il Cənubi Koreyada ziyarətçi sayı artmaqdadır. Ölkə tibbi turizmdən əlavə gəzinti, çimərlik və bənzər xidmətlər göstərməkdədir.Müalicə sonrası turistlərə digər turizm növlərindən istifadədə köməklik edilir. Tayland Cənub-Şərqi Asiyada tanınmış turistik yer olmaqla bərabər tibbi turizmdə də özünə yer etmiş bir ölkədir. Tayland turistləri tropik adaları , dini yerləri, rəngarəng mətbəxi, mədəniyyət abidələri ilə cəzb etməkdədir. Turistlər bunlardan başqa ucuz qiymət və yüksək keyfiyyətli sağlamlıq xidmətlərindən də istifadə etməkdədilər.Tayland həkimlərinin əksəriyyət Yaponiyada təhsil aldığından və tibb bacılarına və digər işçilərə yaponca öyrədildiyindən Yaponiyadan xeyli turist cəlb edir.Taylanda bir çox ölkələrdən tibbi turistlər gəlir, ancaq xüsusən tibbi turistləri Sinqapur, Yaponiya, Bruney, Pakistan, Çin, Tayvan və Banqladeşdən gəlir.( Aydın, D., Aypek, A., Aktepe, C., Şahbaz, P. and Sıddık, A.,2011)

# II FƏSIL.AZƏRBAYCANDA TIBBI TURIZMIN MÖVCUD VƏZIYYƏTI VƏ SOSIAL IQTISADI QIYMƏTLƏNDIRILMƏSI

## 2.1.Tibbi turizmin inkişaf dinamikası,regional yerləşmə xüsusiyyətləri

Zəngin təbii, mədəni, tarixi, insan resursu potensialına və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycanda turizm sənayesinin inkişafının başlanğıcı Sovet Sosialist Respublikasının hakimiyyəti illərinə təsadüf edir. Belə ki, 1937-ci ildə Bakı turist bazası, Hacıkənt turist evi və Göygöl turist düşərgəsi yaradılmışdır. 1941-1945-ci il İkinci Dünya Müharibəsi illərində turizm müəssisələrinin fəaliyyəti dayandırılmış, 1948-ci ildən isə bərpa edilərək 1951-ci ildə yaradılmış Bakı ekskursiya bazasının tərkibinə daxil edilmişdir.Sonrakı illərdə 1958-ci ildə Mingəçevir və Hacıkəntdə, 1959-cu ildə Zaqatalada , 1961-ci ildə Göygöl və Şuşada turist məkanları fəaliyyətə başladı. Azərbaycan Turizm ekskursiyaları idarəsi 1963-cü ildən turizm üzrə Azərbaycan Respublika Şurası, 1970-ci ildən isə Turizm və Ekskursiyalar fəaliyyəti üzrə Respublika Şurasına çevrilmişdir. Ölkə zəhmətkeşlərinin yay istirahətinin təşkil olunması üçün 1963-cü ildə Nabranda Bakı turizm bazasının filialı kimi 160 nəfər üçün nəzərdə tutulmuş “Sputnik” turist düşərgəsi yaradıldı. 1964-cü ildə Bakıda turist klubu, Nabranda “Xəzər” adlı turist bazası, 1966-cı ildə Bakıda, 1968-ci ildə Gəncədə, Sumqayıtda, 1970-ci ildə Naftalanda və Bakının Mərdəkan qəsəbəsində ekskursiya bürosu, 1971-ci ildə Zaqatalada, 1973-cü ildə Şuşada turist bazası yaradıldı, 1972-ci ildə Xankəndində, 1973-cü ildə isə Mingəçevirdə ekskursiya bürosu açıldı. 1976-cı ildə Qəbələdə Qafqaz, Nabranda isə “Dostluq” turist bazası, Bakıda “Qarabağ” turist bazası istifadəyə verildi. 1974-cü ildə ölkəmizdə ən böyük mehmanxana kompleksi olan “Azərbaycan” mehmanxanası, 1979-cu ildə isə “İnturist” səhmdar cəmiyyətin tabeliyində 300 yerlikv “Moskva” mehmanxanası istifadəyə verildi. 1984-cü ildə Xəzərin Azərbaycan sahillərində beynəlxalq əhəmiyyətli kurort zonasının yaradılması ilə bağlı qərar qəbul olundu. Azərbaycan Respublikası Nazirlər Sovetinin 1985-ci il 2 oktyabr tarixli 381 saylı qərarı əsasında Azərbaycan Respublikasında 2000-ci ilədək

turizm sektorunun 58 inkişaf sxemi tərtib edildi. O dövrlərdə aparılan məqsədyönlü iqtisadi siyasətin nəticəsi olaraq 1988-ci ildə xarici ölkələrdən 60 min, İttifaq ölkələrindən isə 350 minə yaxın turist Azərbaycana gəlmişdir(Bilalov B.Ə,2008).

2002-2005 və 2010-2015-ci illərdə “Azərbaycan Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı” həyata keçirilmişdir. Yerinə yetirilmiş proqramlar sayəsində ölkəmiz 2005-ci ildən sürətli iqtisadi inkişafa yönəlmişdir ki, bu da həmçinin turizm sektorundan yan keçmiyib. 2005-ci ildə ölkəmizin iqtisadiyyatında turizmdə ümumi əlavə dəyərin həcmi 147milyon manat olduğu halda, 2015-ci ildə bu rəqəm 2363 milyon manata yüksəlib. Son on ilin müqayisəsində yerləşdirmə yerlərinin sayı 2 dəfəyə kimi artıb. 2006-ci ildə turizm müəssisələrinin sayı 98, mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 286 olduğu halda, 2015-ci ildə müvafiq göstəricilər 244 turizm müəssisələri və 537 mehmanxana və mehmanxana tipli mərkəzlər olmuşdur. Ümumilikdə son 10 il ərzində turizm məqsədi ilə ölkəyə gələn xarici vədəndaşların sayı 3 dəfə artmışdır. Əgər 2005-ci ildə gələn turistlərin sayı 693min nəfər olmuşdursa, 2014-cü ildə bu göstərici 2160min nəfər, 2015-ci ildə isə 1922min nəfərədək artmışdır. Bu yüksək nəticə Ümumdünya Turizm Təşkilatı tərəfindən də qeyd olunub. Dünyada turizm sektorunda böhran və çətinliklərin olmasına baxmayaraq, ölkəmiz turist sayının yüksək artım dinamikasına nail olub. Son illərdə Azərbaycanın dünyada dinamik iqtisadiyyata malik ölkə olaraq qazandığı uğurların mərkəzində həyata keçirilən layihələr, dövlət proqramları və islahatlar öz əksini tapır. Zəngin təbii, tarixi və mədəni irsi özündə ehtiva edən Azərbaycan turizm ehtiyatlarından səmərəli istifadə etməklə, infrastrukturunu genişləndirməklə daxili və xarici turist axınını artırır. Əsrarəngiz tarixi memarlıq yerləri, təbii ehtiyatlar, o cümlədən dünyada yeganə müalicəvi neft olan – naftalan nefti, özünəməxsus mədəniyyət, milli mətbəx və bir çox digər amillər ölkəmizdə turizmin çoxməqsədli: istirahət, əyləncə, işgüzar, müalicəvi, dini, qohum ziyarəti, dostların ziyarəti və digər ( idman, tanışlıq, ovçuluq, ekzotik, çimərlik və hətta qastronomik) növlərinin inkişafı üçün şərait yaradır. 2016-cı ilin statistika məlumatlarına əsaslansaq ölkəmizdə turizm

potensialından istifadə edən turistləri gəliş məqsədlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

**Şəkil 1:Turistlərin Azərbaycana gəlmə məqsədləri**




**Mənbə:** N.C. Qafarov.,( 2012) Turizmin iqtisadiyyatı. Bakı: “Kooperasiya” nəşriyyatı, 440s.

Tibbi turizm əhəmiyyətli mineral və termal sularla zəngin ölkəmiz üçün xarakterik olsa da mövcud potensialından səmərəsiz istifadə olunan turizm növüdür. Statistik məlumatlara nəzər yetirəndə görünən hal budur ki, tibbi turizm növü üzrə ölkəyə gələn xarici vətəndaşların sayı ümumi turizmin 2 %-ni təşkil edir. Bu isə potensial baxımından 1500-dən çox mineral və termal su mənbələrinə, müalicəvi əhəmiyyətə malik olan palçıq vulkanlarına və dünyada yeganə müalicəvi neft mənbəyinə malik olan ölkə üçün aşağı göstəricidir. Mineral sualərın yerləşdiyi ərazilərin potensial imkanların təhlil edərkən görürük ki, ölkəmiz üçün bu yerləşmə xəritəsi Masallı, Lənkəran, Astara, Şuşa, Gədəbəy, Kəlbəcər, Naxçıvan MR, Quba-Xaçmaz, Şəki-Zaqatala regionlarını əhatə edir. Abşeron yarımadası, Masallı, Lənkəran və Astara rayonları mineral sularla yanaşı, eyni zamanda termal suları ilə də məşhurdur. Ərazilərdə mineral və termal suların olması həmin regionların sanatoriya-kurort müəssisələrinin inkişafına təkan

verən göstəricidir.(Bilalov B.Ə,2013) Eyni zamanda qeyd edək ki, mineral sulardan süfrə suyu kimi yararlanılması regionlarda bu suların istehsalı üzrə mərkəzlərin yaradılmasına və sahibkarlığın inkişafı üçün xüsusi imkan yaradır ki, bu da mineral suların regionlarda tibbi turizmin inkişafı ilə bərabər iqtisadi əhəmiyyətliliyini də artırmış olur. Müalicəvi suların iqtisadi əhəmiyyətliliyi aşağıdakılarla izah oluna bilər:

- müalicəvi mineral sularının hasil edilərək, qablaşdırlıb süfrə suyu halına gətirilməsi və bazarda istehlakçı kütləsinə təklif edilməsi;
- mineral və termal sulardan bir neçə xəstəliklərin müalicəsi məqsədi ilə kompleks kurort və SPA xidmətlərinin təşkili;
- mineral və termal sulardan istifadə zamanı digər turizm vasitələrindən istifadə edilmə imkanları.(Abadov M.,2011)

Müalicəvi süfrə sularının qiymətliliyini müəyyən olunmasında onların yerləşdiyi ərazidə infrastrukturun inkişaf səviyyəsi, mənimsənilmə imkanları nəzərə alınır.Azərbaycanda mineral və termal suların tərkbi hidrokarbonatlı-xlordli, hidrokarbonatlı-xlorlu-sufatlı, xlorlu və hidrogen-sulfıdli, kükürdlü və yodlu-bromlu sulardır. Coğrafi yayılmasına görə Kiçik Qafqaz, Naxçıvan mıneral sularla zəngin olduğu halda, Talış reginu, Kiçik-Qafqaz, Abşeronda termal sular daha çox yayılıb.

Bölgələr baxımından müalicəvi turizm imkanlarını araşdırdıqda Abşeron yarımadasının xüsusiyyətlərinin qeyd olunması yerinə düşər. Belə ki, bu regionda termal su mənbələri daha çox yayılmışdır(Bəhərçi T.,Mehdiyeva V.,2012).

Abşeronda yerləşən termal su mənbələri əsasən yoddu-bromlu və hidrogen-sulfıdlidir. Qala, Bilgəh, Şıx və Suraxanı Abşeronun bölgəsinin ən məşhur termal sularına aid edilir.Dəri, dayaq-hərəkət orqanları və sair xəstəliklərin müalicəsində istıfadə olunan bu sular bölgənin ən məşhur müalicəvi termal sularındandır. Regionun termal suları ərazidə sanatoriya-kurort, müalicə müəssisələrinin inkişafına şərait yaradır. Şıx termal suyunun bazasında 250 yerlik sanatoriya fəaliyyət göstərir. Lənkəran-Astara bölgəsində 110-dan çox termal su mənbəyi aşkar edilmişdir. Tərkibi sulfıdli və hidrogen-sulfıdli, həmçinin natrium-xloriddi minerallardan ibarət olan bu

sular öz mualicəvi xüsusiyyətləri baxımından ürək-damar, ginekaloji, dəri və sair xəstəliklərin müalicəsi üçün özünəməxsus əhəmiyətə malikdir. Ərkvan, Örva, Ənji, Meşəsu, Biləsər, Aşağı Ağ Körpü, Qızılca, Qotursu, İstisu, Daşvənd, Qəriblər kimi məşhur termal sular və bunların bazasında yaradılmış Lənkəranda 450 yerlik müalicəvi pansion, İstisu, Yanardağ kimi müalicəvi ocaqlar regionda tibbbi turizmin inkişafı baxımından xüsusi dəyərlidir.(Dərgahov V.S,2008)

50-yə qədər bulağı əhatə edən Badamlı mineral suları qaraciyər, öd kisəsi, mədə bağırsaq xəstəliklərinin müalicəsində müsbət təsirə malikhesab olunur. Essentuki, Kislovodski, Truskavets müalicəvi istirahət zonaları ilə rəqabətə girmək potensialındadır. Bu suyun əsasında yerli əhəmiyyətli müalicə müəssisəsi yaradılmış və yeni texnologiya ilə mineral süfrə suyu istehsalı təşkil edilib. NMR-də müalicə turizminin inkişafında xüsusi çəkiyə malik olan müəssisələrdən biri də “Duzdağ” Fizioterapiya Mərkəzidir. Təbii ehtiyatları 90 milyon tondan çox təşkil edən Duzdağ ölkəmizdə təkcə saf və təmiz duzu ilə deyil, həmçinin şəfaverici xüsusiyyətlərinə görə də tanınmışdır. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə öz müsbət təsirini göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxit, bronxal astma və bu kimi xroniki xəstəliklərin mualicəsində özünəməxsus rola malikdir. Çarpayıların sayı 100dən çox olan bu fizioterapiya mərkəzində illik olaraq xəstə qəbulu 1600-1700 civarında təşkil edir. Nəzərə alsaq ki, 1 pasientin orta müalicə müddəti 14-18 gündür. Belə olan halda illik qəbul imkanı 2500-3000 xəstə ən optimal hal olaraq qəbul edilə bilər. Temperatur dərəcəsinə görə aşağı, minerallaşma dərəcəsinə görə yüksək olan sulara malik Şəki-Zaqatala və Şirvan regionları tibbi turizmin inkişaf göstəricisinə görə regionda potensial imkanlara malikdir. Bum, Qəbələdə Nicdəki hidrokarbonatlı sular, Şəkidə Xal-Xal, Qaxda hidrokarbanatlı İlisu suları bu regionun müalicəvi sularına aid edilir. Bu sulardan Qax mineral suları kimyəvi tərkibinə görə seçilir. Bu mineral suların köməyi sayəsində müxtəlif uroloji, mədə xəstəliklərinin müalicəsində istifadə olunur. Bu cür istfadə imkanları Qaxda 150 çarpayılıq İlisu pansionatı fəaliyyət göstərməsinə

şərait yaratmışdır. "Narzan" və "Esentuki" müalicəvi suları ilə bənzərliyi olan bu müalicəvi suların səmərəli istifadə olunması regionun turizm imkanlarının inkişaf etməsi baxımından daha cəlbedicidir. Çukuryurd mineral bulaqlar kompleksi, Şamaxı rayonunda Qırxbulaq, Cəngi kükürddü suları, İsmayıllı rayonunda Basqal, İstisu, Bədo mineral termal sularnı da bölgənin debiti yüksək olan məşhur mineral sularına aid etmək olar. Şəki-Zaqatala və Şirvan bölgələrində mineral sulardan istifadə etməklə İstisu, Xal-xal, Bum və Çuxuryurd əlverişli və cəlbedici təbii landşafta malik olduğu üçün balneoloji kurortların yaradılması məqsədəuyğun olardı.(Hüseynov İ.,Əfəndiyeva N.,2007)

Böyük Qafqaz sıra dağlarının şimal-şərq hissəsində yerləşən, keçmişdə böyük karvanların əsas dayanacaq yeri olmuş turizm potensialına malik olan ərazilərimizdən biri də Şabran rayonudur. Rayonun ərazisi mneral sular və palçıq vulkanları ilə zəngindir. Yerli meşələrin Zağlı-zeyvə adlanan ərazisində yeraltı neft ehtiyatları da tapılmışdır. Şabranda çoxlu sayda neft buruqları görmək mümkündür. Rayonun ərazisində 2 tarixi-arxeoloji qoruq yerləşmişdir. Söhbət Şabran haqqında düşəndə qeyri iradi olaraq Çıraqqala qalasını xatılrlayırsan. Quliyev R.,2015)

50-dən artıq mineral su mənbəyinə malik olan Gədəbəydə ən məşhur mineral sular Slavyanka mneral bulaqlar kompleksi, Çaldağ, Qalakənd, Qızılca, Narzan, Mor-Mor və sair bulaqlar aiddir. Bu minieral su mənbələri əsasən soyuq bulaqlar qrupuna aid edilərək, gün ərzində debiti 650-700 min litrdən çoxdur . Gədəbəydəki mineral suların tərkibi hidrokorbonatlı-sulfatlı sulardan ibarət olub, ürək damar, müxtəlif dəri xəstəlikləri, mədə-bağırsaq xəstəlklərinin müalicəsində istifadə edilə bilər. (Qurbanov A.,2015)

Hər bir ölkə turist axınına nail olmazdan qabaq bəzi amillərə diqqət yetirməlidir. Turistlərin tələbatı aşkarlanmalı və tələbatın ödənilməsi üçün işlər görülməlidir. İlk əvvəl ölkədə infrastruktur şəbəkəsini inkişaf etdirmək, xidmət səviyyəsinin standartlara uyğun olmasını təşkil etmək, turistlərin yerləşdirilməsi üçün mövcud otellərdə xidmət və keyfiyyət standartlarına əməl olunmasını aşkarlamaq, nəqliyyat şəbəkəsinin

genişlənməsini, inkişafına nail olmaq lazımdır lazımdır. Turistin faydalanacağı xidmətlərin mövcudluğunu və inkişafına nail olmaq onların müsbət təsirlə nəticələnməsinə şərait yaradır. Müalicə üçün köç etmək və axtarışlar çox uzun illər əvvəl başlamışdır. Hər ölkənin özünəməxsus mədəniyyəti, tibbi sahədə problemləri və müalicə axtarışları fmüxtəlif cür olmuşdur. Əvvəlki illərdə insanlar öz üsulları ilə sağlamlıq formulları tapmağa çalışırdılar. Bunlara misal olaraq qanayan bədən nahiyəsinə duz basmaq, temperaturu çox xəstəni soyuq suya salmanı göstərmək olar. (Məmmədov E.Q.,2013)

Azərbaycanın müalicəvi mineral sularının sanatoriya-kurortların inkişafında böyük rolu var. Masallıda “İstısu”, Naxçıvanda “Sirab, Vayxir, Badamlı” mineral suları, Naxçıvanın “Duzdağ” mədəni, Naftalanda “Naftalan müalicəvi nefti”, işğal olunmuş torpaqlarda Kəlbəcərdə, Şuşada “İstısu” daxili turizmin inkişafında və beynəlxalq səviyyədə Azərbaycanı tanıtmaqda mühüm əhəmiyyətə malikdir. Bu sərvətlərdən effektiv istifadə olunması təmin edilməlidir.(Mirzəyev A.,2016)

Ölkəmizdə tibbi və termal turizmə dəstək assosiasiyası tibbi turizminin təşkili edilməsi prosesində bir sıra tədbirlər yerinə yetirir. İlk əvvəl müalicə mərkəzləri, onların təklif etdiyi xidmətin keyfiyyəti, heyətin davranışı, müalicə çeşidi, qiymətlərin səviyyəsi və s. kimi məlumatlar əldə edilir. Buna əsasən sanatoriya və kurortların yenidən təşkili həyata keçirilir. Bu proseslərin həlli zamanı əlaqəli təşkilatların birgə köməyindən istifadə edilir. Ölkəmizdə tibbi turizminin təşkili zamanı bir çox ölkənin bu sektorda artıq həyata keçirdiyi təcrübədən istifadə edilir. Digər ölkələrdən mütəxəsislərin dəvət olunması, bu sahənin inkişaf etdiyi ölkələrə məlumat üçün səyahətlərin təşkil olunması tibbi turizminin təşkilində mühüm rol oynayır. Buna Naftalan, Qalaltı və başqa turizm mərkəzlərinə təşkil edilən infoturları nümunə göstərmək olar.(Qafarov N.C,2013)

Sanatoriya-kurortların müasir formada təşkil olunması 2 şərt əsasında aparılır.İlk olaraq, tibbi və istırahət xidmətlərinə olan tələbin istiqaməti dəyişir.Hal-hazırda insanların əsas istəkləri, sağlam həyat tərzini, yaxşı formanı qoruyan və anti-stress

proqramlara ehtiyac duymaq istəyən dünya miqyasında getdikcə artan sayda insanı əhatə edən sağlam yaşayış tərzidir. Əksərən bu insanlar aktiv istirahəti seçən və müəyyən vaxtları seçən orta yaşlı insanlardır. Sağlamliq kurortlarının yenidən təşkilinin ikinci səbəbi bələdiyyə və dövlətdən gələn maliyyə yardımı da daxil olmaqla ənənəvi yardımın azalmasıdır. Sanatoriya-kurortlar istehlakçı bazarının yeni seqmentlərinə çatmaq və əlavə müştəriləri cəlb etmək üçün çeşidli məhsullarını diversifikasiya etməyə məcbur olurlar. Sağlamlıq qorumaq üçün sanatoriya və kurortlar xəstələrin proqramlarını daha müxtəlif formada həyata keçirir və mədəni tədbirlər təşkil edirlər. Geniş sağlamlıq xidmətlərinin təklifi istiqamətlərində tədbirlər həyata keçirilir. Sanatoriya-kurortların məqsədi sağlamlıq xidmətlərinin və turistin sağlam yaşam tərzinin yüksək səviyyədə təşkil edilməsidir. Xidmətin xüsusiyyətləri ilə əlaqəli olaraq sanatoriya- kurortlarda istirahətin müəyyən formaları hazırlanmışdır. Əlavə gəzintilər, kinoteatr, hovuzlar, boulinq oyunu və s. sağlamlıq baxımından bir məhsulun inkişaf etdirilməsi kompleks və çoxsəviyyəli bir prosesdir. Marketinq tətqiqatları, bazar seqmentləri və rəqiblərin təhlil olunması, gözlənilən istehlak tələbi, kurort yeri, xidmət bazarının konyukturası, xidmətlərin inkişafı, reklamı və təşviq edilməsi üçün real xərclərin qiymətləndirilməsi kimi proseslər tələb olunur. Bu məhsul üçün qiymətləndirməyə xüsusi diqqət tələb olunur. Qiymət səviyyəsi bazara daxil olmağı, bazarda öz yerini tutmağı və mənfəət əldə etməyi asanlaşdırır. (Sultanova H.B,2013)

Turizm siyasətinin müvəffəqiyyəti şəhər və bələdiyələrin turizm müəssisələri, yaşayış və istirahət yerlərində planlaşdırılır. Səmərəli şəkildə təşkil edilmiş yerli, maliyyə cəhətdən yetərli olan, ixtisaslı kadr və səmərəli məhsul yaxşı nəticələrə gətirib çıxarda bilər. Turizm fəaliyyətinin təşkili təbii ki, ərazidə mövcud təbii-rekreasiya ehtiyatlarının olması imkanı ilə həyata keçirilir. Ərazidə mövcud sağlamlıq və təbii ehtyatlar turistlərin tələbatını kompleks şəkildə ödəyən turizm məhsulu istehsalının təşkilinə şərait yaradır. Turizm ehtiyatları təbii və antrapogen ehtiyatlara ayrılır. Turizm sərvətlərinin çoxnövlüyündən  asılı olaraq müxtəlif cür kurortlar yaradılır. Bu kurortların yaradılması qərar qəbulu və təsdiqi ilə başlayır. İlk olaraq kurortun təşkil

edilməsinə təkan verən təbii ehtiyatların müəyyən edilməsi, ekspertlər tərəfindən qiymətləndirilməsi, məlumatların toplanması addımları atılır.Ekspertlər regionda potensial sağlamlıq ehtiyatlarını araşdırmalı, bu ərazilərdə tibbi turizm müəssisələrinin yaradılması işinin praktiki və elmi əsaslarını hazırlamalı, sağlamlıq ehtiyatlarına uyğun olan kurort zonalarını təşkil etməlidirlər. Eyni zamanda bu sektorda məşhur ölkələrin təcrübəsindən istifadə edilməlidir. İnternetdə məlumat çoxluğu xidmət müəssisələrinin təşkili kimi təcrübələrdən istifadə etməyə imkan verir. Əlbəttə belə təcrübələr müqayisəli şəraitdə yerinə yetirilməlidir. Turizmin təşkil edilməsi kompleks səviyyədə aparılmalıdır. Turizm istiqamətləri təşkil edilərkən bir çox xüsusiyyətlər nəzərə alınmalıdır. Belə ki, turizm marşrutu keçən bölgələrin infrastrukturu yenilənməyibsə, həmin bölgələr turistlərin rahatlığı üçün şəraitə malik deyilsə, marşrut xəttinə daxil edilməməlidir. Misal üçün, tibbi turizm üçün gələn turist həmçinin ətraf əraziləri gəzməyi, mədəniyyəti, tarixi abidələri görməyi,ərazinin təbiəti ilə maraqlanır. Xəstələrin boş vaxtlarını səmərəli təşkil etmək üçün bu cür gəzintilər hazırlanmalıdır. Həmin gəzintilərdən xəstələrin zövq alması üçün gediləcək ərazilər abadlaşdırılır. Ölkənin təbliğatı üçün kiçik simvollar təqdim edilməli, tarixi abidələr haqqında informasiyalar bələdçinin vasitəsilə turistlərə çatdırılmalıdır.Turizmin inkişafı ilk olaraq coğrafi şəraitlə əlaqəli olsa da, sonrakı inkişafında isə görülən tədbirlər, dövlətin də dəstəyindən asılı olaraq formalaşır. Turizm daha çoxəhalinin tələbatı və istehlak davranışından asılıdır. Turizmin təşkli əhali, qoyulan məqsədə görə, eyni zamanda ölkənin patensialına görə müxtəlif forma və məzmun daşıya bilər. Turizmin təşkil edilməsi sahibkarlıq, istehlak, gəlirlərlə əlaqəlidir. Bunu turizmın yeni iş yerlərinin açılmasında, ÜDM-də payının artmasında, ölkənin turizm patensialının qiymətləndırilməsində, resursların istifadəyə cəlb edilməsində görmək olar. Turizm sektoru yüksək inkişaf tendensiyasına malik olduğu üçün ölkə iqtisadiyyatında payı sayəsində ölkənin rəqabət qabiliyyətini artırmağa imkan verir. Turizmin təşkili zamanı insanların psixaloji, fizioloji tələblərinə uyğun xidmətlər təşkil etmək lazımdır. Bu səbəbdən də turizmin təşkil edilməsi zamanı yalnız iqtisadi mənfəət deyil, həm də turist

qruplarının tələbatını müəyyənləşdirmək və proqnozlaşdırmaq kimi məsəllələr də nəzərə alınmalıdır. Turizmin təşkil edilməsi zamanı təklükəsizlik strategiyası planda əsas rol oynayır. Planlaşdırma aşağıdakı formada aparılır:

- Turizmin ölkə iqtisadiyyatında rolunu artırmaq;
- Turizmin regionların turizm ehtiyatlarını səmərəli istifadə etmək və regionların iqtisadiyatının ölkə iqtisadiyyatında rolunu artırmaq üçün turizm fəaliyyətini intensivləşdirmək;
- Turizmin təşkilində sahibkarların, fiziki şəxslərin, əhalinin iştirakının artırılması və maddi vəziyyətinin daha da yaxşılaşdırılması

İnsan hardadırsa orda da turizm hadisəsi vardır. Çünki, insan fəaliyyət göstərdikcə və pul xərclədikcə turizm hadisəsi başlamış deməkdir. İnsanlar hər ötən gün qabağa getdikcə və inkişaf etdikcə daha sağlam yaşamaq istəyir. Sağlamlığında baş verən narahatlıqları etibar etdiyi əllərdə, inamlı şəkildə malicə etdirmək üçün ən yaxşı seçim edirlər. Lakin ölkəmiz çox zəngin tibbi turizm potensialına malik olmasına baxmayaraq beynəlxalq səviyyədə öz sözünü deməmişdir. İnsana yenə insan nöteyi-nəzərindən keyfiyyətli turizm xidməti təqdim etmək lazım olduğu bu sahədə ən çətin iş müştəri məmnuniyyətinin təmin olunmasıdır. Əgər bir turizm obyekti ümumi qaydalara uyğun xidmət istehsal edən profesional işçilərdən məhrumdursa, o yerdə turistləri razı sala bilməzsiniz. Təhsilli  və bacarıqlı kadr olması çox vacibdir. Çünki, turizmdə insan ən əsas  faktor olduğunu unutmamalıdır. Buna görə də turizmdə təhsil gələcəyə yönəlmiş mühüm bir yatırım olaraq dəyərləndirilir. Əgər əvvəllər də turizmdə bu günə qədər davam dən sağlam bir təhsil sistemi olsaydı məqsədimizə artıq çatmış olardıq və təhsilli işçi çatışmazlığı çəkməzdik. Digər bir əsas məsələ isə təbliğatla əlaqədardır. Təbliğatın əsasında sağlam bir əlaqə durur. Turizm xüsusən də yoluxucu xəstəliklərə qarşı müdafiəsizdir. İnsanlar yaxın təmas halında hərəkət edirlər. Əlavə olaraq hamının yuxu pozuntusu və vaxtsız yemə  problemləri var. Daha az maaşla işləyənlər, xəstələndiyində evlərində qalarlarsa bir günlük maaşını itirməkdən qorxurlar, sonra xəstə iş yerinə gəldikdə isə başqalarına yoluxur. Gigiyena standartları beynəlxalq səviyyədə eyni

deyil. Misal üçün, bir xəstə otağını təmizləyən xidmətçi asqırarkən və ya öskürərkən digərlərini də yoluxdura bilər. Turizm səyahətləri təbliğat və proqramlar bir sağlamlıq cədvəli ətrafında təşkil edilir. Dünyanın bir çox yerində sağlamlıq eksperti tapmaq asan deyil, yerli sağlamlıq müəssisələri xarici sağlamlıq sığortasını qəbul etməyə bilir və dil problemləri xəstə insanın öz problemini aydın şəkildə izahını çətinləşdirə bilər. Xəstələrə və özlərinə baxmağı düşünməklərinə kömək etmək üçün aşağıdakı fikirlər nəzərdən keçirilməlidir:

- Turistləri və turizm işçilərini sağlam tutmaq, yerli xalqı sağlam saxlamaqdan fərqlidir.Turistlər daha az biliyə və ümumilikdə yerli insanlardan daha çox stressə sahib olurlar. Mütəxəssislər sağlamlıq xidmətinin təşkilindən sağlamlıq sığortasının prablemlərinə qədər hər şeyi yoxlamalıdırlar. Həmçinin yerli sağlamlıq və gigiyena mövzularına və turistlərin yerli bir həkim olmadan apteklərə necə müraciət etmələrinə də diqqət yetirməlidirlər.
- Yerli media yardımına hər zaman ehtiyac olmalıdır. Məlumat yaymaq ehtiyacı media vasıtəsilə qarşılanır. Belə ki, bir xəstəliyin səhfən bildirilməsi, böyük ölçüdə iqtisadi problemlərə yol aça bilər. Bu problemi getdikcə daha yaxşı yox, daha da pis edə bilər.
- Səyahət stres yaradır və stres, şəxsi davranış problemlərindən psixaloji problemə qədər əlavə ağıl xəstəlikləriylə nəticələnir. Çox vaxt insanlar yeni bir ölkədə olmanın stressi yox edəcəyinə inanırlar. Nəticələr isə əksinədir. Bu turizm ekspertlərinin bu tipli turist ilə qarşılaşdığında kimə istiqamətləndirəcəklərini bilmələri mənasına gəlir. Bu prablem turistin dil problemi olduğu vaxtlarda daha da pisləşir.

Azərbaycanın tibbi turizm potensialı bu ssahənin rolunun artmasına imkan verir. Mülayim iqlimli Xəzər dənizi sahilində bir neçə gün istirahət etmək səhhətin bərpa olunmasına və problemli sağlamlığın yaxşılaşmasına kömək edir. Həmçinin ölkəni tanıdan tibbi yağı xüsusilə qeyd etmək lazımdır. Bu qeyri-adi səslənə bilər. Ancaq bu

yağda zərərli birləşmələr, benzin, kerasin yoxdur, yandırmaq olmur  və yanacağa emal üçün uyğun sayılmır, yalnız şəfa verə bilər. Azərbaycan kurortları dünya səviyyəli 8 mineral su təklif edirlər. Qalaltının mineral suyu Sovet Respublikası dövründə keçirilən müsabiqələrdə davamlı olaraq mükafatlara layiq görülüb. Ölkəmizin müalicə müəssisələri bir- biri ilə rəqabət aparmır. Hər sağlamlıq kurortu xəstələr üçün özünəməxsus imkanlar təklif edir.

## 2.2.Tibbi turizmin qiymətləndirilməsi (Naftalan timsalında)

Son 10 il ərzində ölkəmizdə turizm sürətli inkişafa nail olsa da, turizm sektorunda və xüsusən də tibbi turizm sektorunda bəzi çatışmazlıqlar mövcuddur. Mövcud problemlərin aradan qaldırılması üçün yeni müəssisələrin yaradılması, xidmət keyfiyyətinin artırılması istiqamətində turizm heyətinin təhsilinə investisiya qoyulması vacibdir. Reklamı zəif olan Naftalan bölgəsinin ciddi şəkildə təbliğatı ilə mövcud sahənin inkişafına dəstək verilmiş olunacaqdır. Naftalan müalicəvi neftindən Strabonun verdiyi məlumatlara görə əvvəlki dövrlərdə belə müalicə məqsədilə yararlanılırdı. Buna görə həmin vaxtlarda Anadolu, Qafqaz regionundan, Hindistan və İrandan müalicə üçün gələn insanlar geri qayıdarkən bu neftdən yanlarında aparırlarmış. XIX əsrin ikinci yarısında Naftalan müalicəvi nefti qərb ölkələrini cəlb etdi və 1887-ci ildə bir Alman mühəndisin qazma neft quyusunnan aldığı nümunədən Almaniyada dərman hazırlanmışdır. İlk öncə sənaye məqsədli neft çıxarmağı planlaşdıran Yager bir sıra iqtisadi və texniki problemlərlə qarşılaşır. Naftalanın Bakı şəhərindən çox uzaq olmağı və Naftalan neftinin yanan olmamasıdır. Məhz bu səbəblərə görə Yager mülicəvi neftin istehsalını yalnız dayaz quyulardan hasil etmişdir.Şəfalı neftin dayaz yataqları Naftalan neftinin qonşu ölkələrdə şəfalı dərman olaraq bilinməsi, neftin sadəcə dəri xəstəliklərinin yox, eyni zamanda digər xəstəlik növlərinin də malicəsində effektiv olması Yagerin diqqətini çəkən amillərdəndir. Günümüzdə də istifadə edilən Naftalan dərmanlarının kökləri Yagerin hazırladığı məlhəmdən çox xalqın uzunmüddətli təcrübəsinə dayanır. Bu gün müxtəlif xəstəlıklərin həkim nəzarəti altında malicəsi üçün

Naftalana bir çox ölkələrdən turistlər gəlməkdədir.Naftalan müalicəvi neftinin xüsusiyyətlərinin müəyyən edilməsi ilə bağlı müxtəlif əfsanələr vardır. Əfsanəyə görə buralardan keçən xəstə dəvə varmış və karvan dəvənin artıq yeriyə bilməyəcəyini güman edib dəvəni neftli göllər olan yerdə tərk edir. Müəyyən vaxtdan sonra karvan geri qayıdarkən həmin dəvəni görür və bu dəvənin karvana aid olduğunu anlayır. Onlar dəvənin necə sağaldığını öyrəmmək üçün onu izliyir və dəvənin hər gün həmin neftə daxil olduğunu sonra isə günün altında oturduğunu müşahidə edirlər. Karvan adamları da həmin neftdən yaralarına sürtür və bir müddət sonra sağaldığını görür. Bundan sora onun müalicəvi olduğunu anlayır və gedərkən özləri ilə qaba doldurub aparırlar. Həmin əraziyə isə "neft olan ərazi"-"Naftalan" adını verirlər. Tarixi mənbələrdə, orta əsr səyyahlarının məlumatlarında, Nizami Gəncəvinin əsərlərində Naftalan nefti haqqında müəyən məlumatlar vardır. Həbibə Soltanovanın qeyd etdiklərinə istinadən demək olar ki, qədim dövrlərdən insanlara aşkar olan müalicəvi nefti dəri xəstəliklərinin, damar, uraloji, dayaq-hərəkət, əsəb və digər xəstəliklərin malicəsi üçün əvəzsiz bir məlhəmdir. Bu haqda məşhur səyyah Marka Polo da informasiya vermişdir. Onun yazdıqlarına əsasən söyləmək olar ki, bu müalcə məlhəmi qədimdən dəri xəstəliyinin müalcəsində istifadə olunur. Naftalan kurortunda yerləşən müalcə müəssisələri müasir standartlar səviyyəsində təşkilini təmin edir. Bu da turistlərin həm müalcə almasını, həmçinin istirahətinin yüksək səviyyədə təşkilini təmin edir. Naftalan kurotrunun inkişafına dəstək üçün "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üçün Dövlət Proqramı" qəbul edildi. Kurortda quruculuq işləri edildi, xüsusi mehmanxanalar yaradıldı, gələcəkdə reallaşdırılması nəzərdə tutulan işlərin planı tərib olundu.(Sultanova H.B,2013)

Naftalan neftinin müalicəvi təsirini sübut yetirən orta əsr səyyahı Marka Polo bu neftə görə insanların kənar ölkələrdən gəldiyini, yağın yalnız şəfalı özəlliklərinin olduğunu, qida kimi istifadə edilmədiyini yazmışdır. Onun yazılarına görə hətta bu yağ dəvələrə sürtülərsə qaşınması keçib gedər. Naftalan nefti XVIII əsrədək əl ilə qazılmış quyuladran çıxarılaraq hasil olunurdu. 1891-ci ildə hasilatda innovasiya baş verdi, hansı

ki bu innovasiya neftin beynəlxalq səviyyədə əhəmiyyətini bir daha artırdı. Belə ki, neft artıq sənaye üsulu ilə hasil olunudru. Bu vacib yeniliyi alman mühəndisi E.A.Yeger həyata keçirmişdir. Debiti yüksəy olan və dörd mənbədən çıxarılan netfin əsasında kurortun ərazisində müalicə müəssisələri fəaliyyət göstərir. Azərbaycan tibbi turizmdə yüksək potensiala sahib olub, yeni investisiyaların qoyulması turizmin inkişafı və diversifikasiyası üçün diqqət tələb edir. Naftalan ərazisində turizmin inkişafı və gəlirlərinin artması üçün bir çox işlər görülməlidir. Müasir turizm mərkəzlərinin sayı artırılmalı, turizm mərkəzlərinin xidmət keyfiyyəti artırılmalı, təcrübəli və ixtisaslı işçi heyətinin olması üçün tədbirlər görülməli, həmin bölgəyə turlar təşkil edilməli, tibbi turizmdə qabaqcıl ölkələrin təcrübələri Naftalana tətbiq edilməli, kurort zonasının təbliğatı gücləndirilməli, xarici ölkə turaperatorları ilə əlaqə yaradaraq turist sayının artımına əlverişli şərait yaradılmalıdır. Bütün bu işlər çərçivəsində meydana gələn inkişaf ölkə iqtisadiyyatına böyük təsirini göstərəcək və bunun nəticəsində ölkədə tibbi truizm mühüm bir sektora çevriləcəkdir. Naftalan kurortunun xarici ölkələrdə təbliğatı ilə əlaqəli çatışmazlıqlar mövcuddur. Bu çatışmazlıq həm xarici ölkələrdən Naftalana gələn xarici turist sayının az olmağına, həmçinin beynəlxalq turizm şirkətlərinin Naftalanın tibbi turizm potensialına maraq göstərməməkləri ilə nəticələnir. Təbliğatla əlaqədar tədbirlər görülməsi, xüsusilə Turizm və Mədəniyyət Nazirliyinin Naftalanın təbliğatına xüsusi diqqət verməsi lazımdır. Təsiredici bir reklam yaradılması nəticəsində ölkədə çoxnövlü turizm patensialı və turizm fəaliyyətləri təsirli bir şəkildə istifadə edilərək ölkəmizin iqtisadiyyatına təsir edəcək beləliklə də turizm önəmli bir sahə vəziyyətinə gələcəkdir. Bunun nəticəsində neft və qaz ixracına dayanmış olan Azərbaycan iqtisadiyyatının diversifikasiyasını da təmin edəcəkdir. Eyni zamanda uğur qazanmağın digər bir yolu dünya praktikasından  xüsusilə də ABŞ, Türkiyə kimi ölkələrin təcrübələrinin öyrənilməsi həm doğru tətbiqlərin, həmçinin xidmət keyfiyyətini artıracaq. Çinar santoriyasi SSRİ-vaxtından mwalicə xidməti göstərir. 2014-cü ildə yradılmış Kəpəz sanatoriyası isə artıq 6 ildir fəaliyyət göstərir. Gözəl mənzərəli ərazidə yerləşən sanptoriyada yüksək səviyyədə müalicə-müayinə tədbirləri

həyata keçirilir. Eyni vaxtda turistlərin istirahətini təmin etmək üçün Azərbaycanın Mingəçevir, Şəki Göy-göl rayonlarına da turlar da təşkil olunur.

**Şəkil 2: Azərbaycanın əsas sağlamlıq mərkəzləri**




| Naftalanda olan yerləşdirmə vasitələri | Otaq sayı | Lüks [2] |
|---|---|---|
| Çinar Hotel & Spa Naftalan | 170 | ✓ |
| Sehrli Naftalan | 120 | |
| Naftalan Hotel By Rixos | 95 | ✓ |
| Naftalan İstirahət və Sağlamlıq Mərkəzi | 81 | |
| Qarabağ kurort və spa | 41 | ✓ |
| Möcüzəli Naftalan | 41 | |
| Şəfa vannaları | 28 | |
| Naftalan Sanatoriya Kurort Birliyi | 26 | |
| Naftalan Əlilləri Bərpa Mərkəzi | 12 | |
| Ağ bina | 10 | |

**Mənbə:** Turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi
https://mida.gov.az/documents/Turizm_s%C9%99nayesinin_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf
1.Kükürdlu su

2.Bura Spa, masaj, üzgüçülük hovuzu daxildir.

Hal-hazırda Naftalanda müasir standartlar səviyyəsində on müalicə-sağlamlıq müəssisəsi yaradılmışdır və bu müəssisələrin turistlərin zövqlərinə uyğun tam hazırlanması davam etdirilir. Bunlar “Naftalan”, “Qarabağ”, “Qaşaltı”, “Gözəl Naftalan”, “Çinar”, “Sehirli Naftalan”, “Möcüzəli Naftalan” sanatoriyalarıdır. Sanatoriyalar müasir texnika və avadanlıqlarla təmin edilmiş, rahat otaqlar, idman kompleksi, , hovuz, türk saunası, poliklinika fizioterapiya şöbəsi, 3D kinoteatr, bilyard və boulinq zal və başqa istirahət, müalicə və əyləncə xidmətləri ilə təmin olunub. Burada əsas olaraq qonaqların malicə alması və boş vaxtlarını əyləncəli keçirməsidir.

Müalicə müəssisələrində Naftalan nefti ilə peşəkar ekspertlərin nəzarəti altında müxtəlif müalicə prosedurları yerinə yetirilir. Naftalan neftinin şəfalı xüsusiyyətindən qədim tayfalar, xəzər tayfaları, roma əsgərləri alan və s. qəbilələr yararlanmışlar. Həmçinin bu nefti ixrac məhsulu olaraq karvan yolu ilə Cənubi, Mərkəzi Asiya, Cənub-Qərbi Asiya ölkələrinə və başqa ölkələrə də göndərirlər. XIX əsrdə Bakıda neft sənayəsinin tərəqqisi ilə bura Avropadan gələnlərin sayı da artdı. Alman sənayəçilərin, mühəndislərin eyni vaxtda Naftalan nefti də diqqətini çəkmişdir. Alman mühədnisi Yager Naftalan neftindən hazırladığl məlhəmi öz ölkəsindən əlavə digər Avropa ölkələrinə də göndərmişdir. Hətta yaponlar və ruslar arasında baş vermiş müharibə zamanı yapon hərbçilərinin bu məlhəmi istifadə etdiyi qeyd edilir. Bu resursun yalnız Azərbaycanda mövcud olması və bu cür şəfalı təsirə malik olması bizə görə müsbət xüsusiyətdir. Bu Azərbaycanın tibbi turizm sahəsində tanıdılmasına çox böyük fayda verir. Neft təkcə şəfaverici özəlliyinə görə deyil həmçinin fiziki-kimyəvi xüsusiyyətinə görə də digər neftlərdən fərqlidir. Lakin təkcə həkim nəzarəti altında Naftalan neftindən istifadə olunmalıdır. Belə ki,bəzi xəstəliklər üçün bu neftin əks təsiri ola bilər və xəstəyə zərər vurar. Naftalan şəhərində turistləri cəlb edən və təkcə Naftalanda yerləşən maraqlı bir muzey vardır. Muzeyin fərqliliyi ondan ibarətdir ki, burda ekspanatlar müxtəlif ölçüyə və növə malik qoltuğağaclarıdır. Bu qoltuğağacları burada müalcə alan xəstələrindir və onlar müalicədən sora öz sağlamlıqlarına qovuşduqları üçün qoltuğağaclarını qoyub gedirlər.Dünya üzrə bənzəri olmayan müalicəvi Naftalan nefti ölkəmizin ikinci böyük şəhəri olan Gəncədən 55 km məsafədə yerləşir. 1930-cu ildən başlayaraq ekspertlər Naftalan yatağı ərazisində fəaliyyətə başladılar. Bundan sonra bura SSRİ-nin hər regionunda müəyyən xəstəliklərin müalicəsi üçün turistlər gəlməyə başlayırdı. SSRİ dövründə Naftalan respublikanın ən gözəl istirahət və müalicə mərkəzi idi. Tərkibində yüngül fraksiyanın və qatı porafin karbohidrogenlərin yoxluğu yağın önəmli özəlliklərindəndir. İçində kifayət qədər qətran alması və su ilə qarışması Naftalan neftinin digər neftdən fərqləndirən xüsusiyyətdir. Xüsusilə də damar, ginekoloji, sinir və dəri xəstəliklərinin müalicəsində önəmli təsirini göstərir. Ölkə

başçısının 2016-cı il 16 mart tarixli sərəncamına görə turizm sənayesinin inkişafı istiqamətində tədbirlər planı qəbul edilmişdir. Regional turizm növlərinin inkişaf etdirilməsi üçün görüləcək işlərdən biri Naftalan nefti əsasında kosmetika və sağlamlıq məhsulları hazırlanmasıdır. Bunun üçün Naftalan neft-araşdırma heyəti yaradılmalıdır. Bu məhsulların tanınması işində rolu olan müəssisələrin fəaliyyəti dövlət tərəfindən dəstəklənəcəkdir. Eyni zamanda bu işə özəl şirkətlərin da cəlbi üçün müəyyən işlər yerinə yetiriləcəkdir. Naftalan nefti əsasında hazırlanmış məlhəm və digər məhsulların sertifikatlaşdırılması lazımı qaydada təşkil ediləcəkdir. Hazır məhsulların beynəlxalq səviyyədə tanıdılması üçün beynəlxalq təşkilatlardan məhsulun müalicəvi xüsusiyyətini təsdiqləyən sertifikat alınması planlaşdırılmışdır.(“Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”. Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6dekabr tarixli fərmanı.)

## 2.3. Tibbi turizmin inkişaf etdirilməsində dövlət siyasəti

Turizm sektorunda dövlət siyasəti turizm sənayesinin təşkilinə, inkişaf etməyinə dəstək verən tədbirlər toplusudur. Dövlət strategiyasını həyata keçimrək üçün turizm strategiyası hazırlanır. Strategiyada turizmin təşkil edilməsi, məqsədə çatmaq üçün səmərəli yollar, dövlət proqramlarının səfərbərliyini özündə əks etdirir. Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni inkişaf mərhələsinə keçdi. Açıq bazar iqtisadiyyatına keçid mərhələsində yeni ölkələrlə diplomatik münasibətlər yaratdı, beynəlxalq əhəmiyyətli müqavilələr imzalandı. Eyni vaxtda turizm sektoru sahəsində də yeni ifəaliyyətlər görüldü. Buna ilk olaraq 1999-cu ildə Ümumilli lider Heydər Əliyevin Fərmanı əsasında qəbul edilmiş “Turizm haqqında” qanun ilə başlandı. “2002-2005-ci ilərdə Azərbaycanda turizmin inkişaf proqramı” bu sahənin inkişafı üçün sonrakı illərdə əhəmiyyətli rol oynadı və Azərbaycanın beynəlxalq turizm bazarına çıxışının başlanğıcını qoydu. Belə ki, 2003- cü ildən başlayaraq ölkəmizdə hər il Azərbaycan Beynəlxalq Turizm Sərgisi keçirilir və bu artıq ənənə halını alıb. Həmçinin ölkəmizin turizm resursları, bu sektorun ölkəmizdə inkişafını göstərən materiallar bir

çox xarici ölkə sərgilərində nümayiş etdirilmişdir. Başqa bir Dövlət Proqramı "Azərbaycan Respublikasında 2007-2016-cı illər üçün turizmin inkişafına dair Dövlət Proqramı"dır. Proqramda turizm sektorunda ixtisaslı kadr potensialının artması, turizm resurslarından düzgün və effektli istifadə edilməsi, bu sektorda dövlət siyasətinin hazırlanması və s. kimi məsələlər öz əksini tapmışdır. Tibbi turizmin təşkilində əsas diqqət yetiriləsi işlərə müalicə ehtiyatlarının araşdırılması, onların mövcud olduğu ərazilərdə sanatoriya müəssisələrinin yaradılması, kurort ərazilərinə turizm marşurutlarının təşkili, turistlərin əyləncəsi üçün əlavə tədbirlərin hazırlanması və proqramlaşdırılması və s. aiddir. Bu bölgənin tanıdılmasında həmin bölgə haqqında məlumatlar əks olunmuş nəşrlərin, reklam materiallarının hazırlanması, kurorta xas simvolik suvenirlərin yaradılması və s. işlər həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır. 2011-ci ilin turizm ili elan olunması turizmin inkişafıda mühüm addım ohesab olunur.Ölkəmizdə əlverişli coğrafi mövqeyin, tarixi mədəniyyət abidələri, müalicəvi mineral bulaqlar, termal sular, zəngin milli mətbəxin olması turizm sahəsinin inkişafına təkan verən xüsusiyyətlərdir. 1950-60-cı illərdə SSRİ tərkibində mövcud olan ölkələr arasında ən zəif turizm ölkəsi Azərbaycan sayılırdı. Respublika prezidentinin 2010-cu ildə qəbul etdiyi sərəncama əsasən "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafı naminə Dövlət Proqramı" təsdiq olunmuşdur. 2010-2015-ci il müddətində ölkəyə gələn turistlərin sayında 9 faiz, turizm sahəsində obyektlərin sayında 5 faiz, bu sahədə əhalinin məşğulluq səviyyəsində isə 7 faiz yüksəlmə görülmüşdür. Bu xüsusiyyətlər turizmin inkişafının qarşıdakı illərdə artacağından xəbər verir.( "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6dekabr tarixli fərmanı.)

2015-ci ilin sonlarında neftin qiymətində baş vermiş kəskin azalma qeyri-neft sahəsinin inkişaf etdirilməsi vacibliyini ortaya çıxardı. Bunun da nəticəsi olaraq turizmin inkişafına önəm verildi. Digər ölkələrdə olduğu kimi Azərbaycanda da turizmin inkişaf etdirilməsi, gələn ziyarətçilərin sayının artırılması naminə bir çox işlər həyata keçirilir. Nəticədə hər il müsbət göstəricilərə çatılır. Belə ki ölkəmizə Avropa,

Asiya son illərdə isə ərəb turistlərin gəlişini qeyd etmək olar. Turizmin inkişafında qeyd olunan bu nəticələr həm infrastrukturun, otel şəbəkəsin, kurort şəbəkəsinin yenilənməsi, həm də Azərbaycanda keçirilən dünyəvi sərgilərin, tədbirlərin, həyata keçirilən dövlət proqramlarının təsiri ilə bağlıdır. “İlk Avropa Oyunları”, “Formula-1” və digər beynəlxalq tədbirlər sayəsində turistlərin ölkəyə marağı artır. Azərbaycanın müalicə ehtiyatlarını XIX əsrin əvvəllərində araşdırmağa başlansada qədim dövrlərdə də buraya gələn turistlər buradakı şəfalı mənbələrdən faydalanmışlar. Hal-hazırda isə ölkədə dünyada tanınan müalicə müəssisələri mövcuddur. Bu sahədə əsas diqqət yetirilməli vəzifə isə sağlamlıq ocaqlarımızın dünya səviyyəsində tanıdılması və turistlərin ölkəyə gəlməsi üçün reklam kampaniyasının, kompleks tədbirlərin keçirilməsidir. Bu sahədə reklam işlərinin aparılmasına  çox böyük ehtiyac vardır. Ölkədə yaradılmış Sağlamlıs və Termal Turizmə dəstək Assosiasiyasısının bu sektorun inkişafı üçün etdiyi fəaliyyətlərə, yerinə yetirəcəyi layihələrə diqqət yetirsək faydalı işlərin edildiyini görmək olar. Assosiasiya sağlamlıq ocaqlarının yerləşdiyi bölgə, sağlamlıq mərkəzlərində müxtəlif istirahət proqramları, ətraf ərazilərə ekskursiyaların təşkil olunması, müalicə xidmətləri haqqında, xidmət heyəti haqqında informasiyalar yerləşdirilmiş, kataloqlar hazırlanması işində fəaliyyətə başlamışdır. Həmçinin malicə resurslarının yerləşdiyi əraziləri göstərən xəritə də hazırlanır. Təşkilatın Naftalana, Masallıya təşkil etdiyi infoturlar da tibbi turizmin inkişafı yolunda vacib rol oynayır. 2016-cı il 10 dekabr tarixində Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində Azərbaycanın digər ölkələrlə qarşılıqlı fəaliyyətinin artırılması, bu sahədə yerləşən müəssisə və obyektlərdə xidmət standartlarının və keyfiyyətinin yüksəldilməsi və s. kimi əsas hədəflər qoyulmuşdur. Tibbi turizmin inkişafı sahəsində görüləcək işlərə misal olaraq 2017-2020-cı illər üzrə tibbi turizmin inkişafı istiqamətində tədbir planı hazırlanacaqdır. Bu plan Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanacaqdır. Plana əsasən Qəbələ, Lənkəran, Masallı rayonlarında olduğu kimi digər ərazilərdə də təbii resurslardan istifadə edilməsi planlaşdırılır.

Fəaliyyət planının tibbi turizmin inkişafına təkan vermək üçün 2021-ci ildən sonra reallaşdırılması planlaşdırılmışdır. Müalicəvi Naftalan neftinin dünya səviyyəsində təbliği istiqamətində işlər görüləcəkdir. Müalicəvi neftdən gözəllik və kosmetika məhsulları yaradılması, marketoloqların da dəstəyi ilə bu məhsulların zıyarətçilərə tanıdılması, yerli və xarici turizm ərazilərində bu məhsulların nümayişi kimi fəaliyyətlər planlaşdırılmışdır. Belə ki bu məhsulların yaradılması üçün peşəkar ekspert və alimlərdən ibarət araşdırma qrupu yaradılmalıdır və məhsulları üzərində ölkə turizminə aid informasiyalar yerləşdirilməlidir. Malicə mənbələri olan ərazilərə qısamüddətli turlar təşkil edilməli və aidiyyatı müəssisələrin və orqanların da bu planlarda iştiraki nəzərə alınmalıdır. Turistlərin krort zonalarına rahat daşınması üçün nəqliyat yollarının yaxşılaşdırılmasına önəm verilməlidir. Azərbaycanda kurort işinin təşkili və idarəedilməsi istiqamətində dövlət siyasəti həyata keçirilir. Yerinə yetirilən dövlət siyasətinin iştirakı ilə inkişaf etmiş turist kompleksi yaradılmışdır. İnsanların əyləncəsi, müalicəsi, sağlamlığının təmin olunması cəhətdən vacib rol oynayan kurortlar eyni anda da əhalinin məşğulluğunun artırılması, regionun sosial-iqtisadi inkişaının, infrastrukturun, xidmət və digər əlaqəli sahələrin inkişafında da vacib rol oynayır. Sanatoriya-kurortların yaradılması istiqamətində əsas fəaliyyət kurort-sanatoriya şəbəkəsinin müasirləşdirilməsi, beynəlxalq səviyyədə yaradılmasıdır. Bu fəaliyyətlərin həyata keçirilməsini ölkə səviyyəsində tənzimləmək üçün “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı” imzalandı. Proqramda gələcəkdə aşağıdakı nəticələrin əldə olunacağı proqnozlaşdırılır:

- Ölkədə təbii müalicə resurslarının düzgün dəyərləndirilməsi;
- Ölkədə fəaliyyət göstərən tibbi mərkəzlərin beynəlxalq səviyyədə inkişafı;
- Sanatoriya-kurort şəbəkəsinin inkişafı bu sahə ilə bağlı digər sahələrin də inkişafına nail olunması;
- Sanatoriya-kurort mərkəzlərinin müalicə tədbirlərinin və heyətin keyfiyyətinin artırılması sayəsində bir çox xəstəliklərin azaldılması;

- Bu sahənin inkişafı sayəsində Azərbaycanı tanıdacaq imicin formalaşması və bu xidmətdən turistlərin, imkansız ailələrin istifadəsi;

- Sanatoriya şəbəkəsinin inkişafının nəticəsi olaraq qazancın artması və həmin kurortların ətraf ərazilərdə yaşayan əhalinin iş yeri ilə təmin olunması göstəricilərinin artması. (Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6fevral tarixli 125 nömrəli sərəncamı)

2017-ci il 10 iyun tarixində "Azərbaycan turizm sektorunun inkişafında sağlamlıq-müalicə turizminin əhəmiyyəti və turizm məhsulu kimi turizm müəssisələri şəbəkəsində satış təcrübələri" mövzusu adı altında təlim təşkil edilmişdir. Təlim Azərbaycan Sağlamlıq və Termal Turizmə dəstək Assosiasiyasının təşkilatçılığı ilə sanatoriya-kurort və turizm müəssisə və orqanlarının iştirakı ilə baş tutan təlimdə tibbi turizmin gələcək inkişafının təmin edilməsi və beynəlxalq turizm bazarına daxil olması müzakirə edilmişdir. Təlimdə bildirilmişdir ki, ölkə prezidentinin müxtəlif

illərdə imzaladığı dövlət proqramları və sərəncamlar bu sahəyə həmişə dövlət qayğısının olduğunu göstərir. 2017-ci ildə "Qalaltı" istirahət və mülaicə kompleksinin Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasına üzv seçilməsi bu sahədə əldə edilən uğurlardandır. 2016-cı ildə Naftalanistirahət zonasına 38 min turist gəlmişdir ki, bu da görülən tədbirlərin nəticəsidir. Digər ölkələrdə turizmin reklamını təşkil etmək məqsədi ilə müxtəlif saytlarda elektron banerlər yerləşdirilmişdir. Azərbaycanda turizmin təşkili istiqamətində görülən fəaliyyətlərdən biri də 2003-cü ildə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə ölkədaxili turizm marşurutlarının təşkil olunmasıdır. Belə ki, 7 turizm istiqamətindən 4-ü əsas 3-ü isə əlavədir. Bakı-Xaçmaz, Bakı-Astara, Bakı-Qazax, Bakı-Balakən əsas marşurutlardır. Bakı-Abşeron yarımadası, Bakı-Naxçıvan, Bakı-Dağlıq Qarabağ isə əlavə marşurutlardır.(Əlirzayev Ə.,Aslanov S.,2016)

**Cədvəl 1: Turizm səfərlərinin məqsədinə görə yerləşdirilmiş turistlərin sayı**

| Göstərici(illər) | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|
| Azərbaycana gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslər (min nəfər) | 2508.9 | 2297.8 | 2006.2 | 2248.8 | 2696.7 | 2849.6 |
| Turizm məqsədilə (min nəfər) | 2129.5 | 2159.7 | 1921.9 | 2044.7 | 2454 | 2605.3 |
| İstirahət,əyləncə turizmi (min nəfər) | 705.2 | 709.9 | 668.8 | 697.1 | 839.3 | 1042.4 |
| Müalicə turizmi(min nəfər) | 46.2 | 46.3 | 36.5 | 41.5 | 49.1 | 63.1 |
| Dini turizm (min nəfərlə) | 13.7 | 13.7 | 11.5 | 12.6 | 14.7 | 15.3 |
| Qohumlara,dostlara baş çəkmək ( min nəfərlə | 673.7 | 677.1 | 542 | 562 | 674.9 | 651.6 |
| Digər turizm məqsədilə (min nəfər) | 41.8 | 42.2 | 30.8 | 39.8 | 41.6 | 45.5 |
| Digər məqsədlə | 379.4 | 138.1 | 84.3 | 204.1 | 242.7 | 244.3 |

**Mənbə:** https://www.azstat.org/MESearch/details məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi 2014-cü ildə 2013-cü il ilə müqayisədə Azərbaycana müalicə məqsədilə gələn turistlərin sayında qismən artım müşahidə edilmişdir. Bunun səbəbi kimi "Azərbaycan Respublikasında turizm inkişafına dair dövlət proqramı"nı göstərmək olar.Bu proqramın fəaliyyət istiqaməti kimi turizm və rekreasiya zonalrında infrastrukur yaradıldı və ya yeniləndi.Bu sahəyə yerli və xarici investisiya cəlb edildi.Beynəlxalq əməkdaşlıq daha da genişləndi. 2016,2017-ci ildə yenidən artım olmuşdur.Buna səbəb 2016 cı il iyun ayında keçirilmiş "Formula-1" yarışı və 2017-ci ildə keçirilmiş İslam Həmrəylik oyununu göstərmək olar.Bu beynəlxalq tədbirlərin keçirilməsi turizmin bir çox növündə inkişafa səbəb oldu.Bu inkişaf özünü 2018-ci ildə də 28% artımla göstərdi.Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Kansepsiyası təsdiq edilmişdir. Kansepsiyada qeyri-neft sektorunun inkişaının dəstəklənməsi, yeni müəssisələrin açılması, infrastruktur və nəqliyyatın inkişaf etdirilməsi kimi sahələrdə

uğurlar əldə olunması kimi məsələlər əsas götürülüb. İqtisadiyatın inkişafının stabilliyi, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması, ölkənin ehtiyatlarının və potensialının qiymətləndirilməsi, vətəndaşlarının hüquqlarının müdafiəsi kimi məsələlər kansepsiyanın strateji məqsədi olaraq əsas götürülüb. Konsepiyada turizmin inkişafı, iqtisadi artımında əhəmiyyətinin artması, adambaşına düşən milli gəlirdə rolunun artırılması, bölgələrdə turizmin müxtəlif növlərinin inkişafının dəstəklənməsi, Xəzər dənizinin turizm potensialının qiymətləndirilməsi istiqamətində tədbirlər, qanunvericilik qaydaları yerinə yetirilməsi qeyd edilmişdir. Turizm bölgələrində hava limanı və dəmiryol nəqliyatının yaradılması və təkmillədirilməsi istiqamətində həyata keçirilən fəaliyyətlər bu sahənin bütünlükdə inkişafına şərait yaradacaqdır.( “Azərbaycan 2020:gələcəyə baxış” İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı.)

17 mart 2018-ci ildə sağlamlıq turizm sektorunun nümayəndələrinin və Mədəniyyət və Turizm Naziri Ə.Qarayevin başçılığı ilə tibbi turizmin təşkili və inkişafı ilə bağlı iclas təşkil edilmişdir. Ə.Qarayevin qeyd etdiklərinə əsasən: 2016-cı il tarixli “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” tibbi turizmin təşkilində vacib rol oynadı. Azərbaycanın tibbi turizmin təşkili üçün potensialının olduğunu nəzərə alaraq Strateji Yol Xəritəsinin uyğun bəndlərinə əsasən “İşçi qrup” hazırlanmışdır. Tibbi turizmin inkişafı və təşkil olunması üçün yaradılmış “işçı qrupu” Turizm Şurasının tərkibində fəaliyyət göstərir. Ə.Qarayev vurğulamışdır ki, hazırda Quba və Qusar ərazilərində turizmin təşkili yönündə işlər həyata keçirilir. Digər tibbi turizm potensialı olan ərazilərdə isə infrastrukturun yenilənməsi işləri aparılır. 2018-2020-ci illər üçün “Sağlamlıq turizminin inkişafına dair Fəaliyyət planı” nda beynəlxalq təcrübədən istifadə edərək tədbirlər yerinə yetiriləcəyi nəzərdə tutulmuşdur. Ölkəmizin dünya səviyyəsində tanınması üçün Qalaltı, Naftalan və Duzdağ kurortlarının beynəlxalq sertifikatlaşmadan keçməsi təmin olunacaqdır. 23 fevral tarixində “Qlobal Sağlamlıq Turizmi Forumu”un növbəti fkonfransı təşkil edilib. Konfrans Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində

həyata keçirilib. “Global Healthcare Travel Conferance” da 30-a yaxın ölkə iştirak edib. 65 nümayəndənin iştirak etdiyi konfrans Dubay Əmirliyinin himayəsi ilə yerinə yetirilmişdir. Konfrans 2 gün davam edib. Konfransda Naftalan, Qalaltı, İstisu, Abşeron haqqında informasiyalar təqdim edilib. Müzakirə edilən aktiv mövzular akreditasiya, sağlamlıq turizmi, qlobal sağlamlıq turizmi ölkələri arasında münasibətlər, brendləşmə, sağlamlıq turizm destinasiyaları və s. bu kimi mövzular olmuşdur. Verilən informasiyalara əsasən konfransın  məqsədi tibbi turizm sahəsində təcrübə və biliklərin paylaşılmasıdır. Buna görə də hər ölkənin turizm sahəsində önəmli liderləri bir araya gətirilmişdir.

# III FƏSIL.AZƏRBAYCANDA TIBBI TURIZMIN INKIŞAF ETDIRILMƏSI YOLLARI

## 3.1.Azərbaycanda tibbi turizm xidmətinin qiymətləndirilməsi nəticələri

Anketimiz seçilmiş 2 tibbi müəssisədə 14 həkimə verilmiş 15 sual və 15 xəstəyə verilmiş 10 sualdan ibarətdir.Bu tibbi müəssisələr Naftalan Sağlamlıq Mərkəzi və Bubnovski Onurğa Mərkəzidir.Anket nəticələri SPSS for Windows 16.0 versiyasında təhlil edildi.Anketin suallarla nəticələri aşağıdakı kimidir:

**Cədvəl 2: "Çalışdığınız tibb müəssisəsini tibbi turizm sahəsində fəaliyyət göstərən bir qurum olaraq görürsüzmü?" sualına Bubnovski Onurğa Mərkəzi həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Bəli | 61.5 | 61.5 |
| Qismən | 17.1 | 78.6 |
| Xeyr | 21.4 | 100 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bubnovski Onurğa Mərkəzi həkimlərinin 61.5%-i bu suala bəli,17.1%-i qismən və 21.4%-i xeyr cavabı verdi.

**Cədvəl 3: "Çalışdığınız tibb müəssisəsinə tibbi turizm məqsədilə turist gəlir?" sualına Bubnovski Onurğa Mərkəzi həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Bəli | 54.3 | 54.3 |
| Qismən | 31.4 | 85.7 |
| Xeyr | 14.3 | 100 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bubnovski Onurğa Mərkəzi həkimlərinin 54.3%-i bu suala bəli,31.4%-i qismən və 14.3%-i xeyr cavabı verdi.

**Cədvəl 4: "Çalışdığınız tibb müəssisəsində tibbi turistlərə xidmət üçün heyət varmı?" sualına Bubnovski Onurğa Mərkəzi həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Bəli | 64.3 | 64.3 |
| Var amma kifayət deyil | 28.5 | 92.8 |
| Xeyr | 7.2 | 100 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bubnovski Onurğa Mərkəzi həkimlərinin 64.3%-i bu suala bəli,28.5%-i heyətin tərkibinin kifayət qədər omadığı və 7.2%-i xeyr cavabı verdi.

**Cədvəl 5: "Çalışdığınız tibb müəssisəsinə gələn tibbi turistlərlə ünsiyyət qurmaq üçün müəssisədə xarici dil təhsili olan heyət varmı?" sualına Bubnovski Onurğa Mərkəzi həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Kifayət qədər var | 54.3 | 54.3 |
| Var amma azdı | 28.6 | 82.9 |
| Yoxdur | 7.1 | 7.1 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bubnovski Onurğa Mərkəzi həkimlərinin 54.3%-i bu suala heyətin kifayət qədər olduğu ,28.6%-i heyət sayının kifayət qədər omadığı və 7.1%-i xarici dil təhsili olan heyətin olmadığı cavabı verdi.

**Cədvəl 6: ‘‘Tibbi müəssisənizə gələn tibbi turistlərlə ünsiyyət üçün müəssisənizə tərcüməçi cəlb olunurmu?” sualına Bubnovski Onurğa Mərkəzinin həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Bəli | 57.1 | 57.1 |
| Xeyr | 21.4 | 78.5 |
| Ehtiyac olmur | 21.5 | 100 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bubnovski Onurğa Mərkəzi həkimlərinin 57.1%-i bu suala bəli,21.4%-i xeyr və 21.5%-i özlərinin dil bilikləri səbəbindən ehtiyac yoxdur cavabı verdi.

**Cədvəl 7: “Tibbi turistlərə paket proqram təklif edirsizmi?” sualına Bubnovski Onurğa Mərkəzinin həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Tez-tez | 57.1 | 57.1 |
| Nadirən | 35.7 | 92.8 |
| Xeyr | 7.1 | 100 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bubnovski Onurğa Mərkəzi həkimlərinin 57.1%-i bu suala bəli,35.7%-i qismən və 21.4%-i xeyr cavabı verdi.

**Cədvəl 8: ‘‘Tibbi turizm sahəsində vasitəçi şirkətlərlə işləyirsizmi?” sualına Bubnovski Onurğa Mərkəzinin həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Bəli | 14.2 | 14.2 |
| Xeyr | 85.8 | 100 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bubnovski Onurğa Mərkəzi həkimlərinin 14.2%-i bu suala bəli,85.8%-i xeyr cavabı verdi.

**Cədvəl 9: "Tibbi turist aldığı müalicədən sonra ölkəsinə qayıtdıqdan sonra müalicənin davamı mövzusunda tibbi turistlə ölkəsinə qayıtdıqdan sonra da əlaqə saxlayırsızmı?" sualına Bubnovski Onurğa Mərkəzinin həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Bəli | 64.3 | 64.3 |
| Nadirən | 7.1 | 71.4 |
| Xeyr | 28.6 | 100 |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bubnovski Onurğa Mərkəzi həkimlərinin 64.3%-i bu suala bəli,7.1%-i nadirən və 28.6%-i xeyr cavabı verdi.

**Cədvəl 10: "Tibbi turizm xidmətində elektron qeydiyyatdan istifadə edirsizmi? sualına Bubnovski Onurğa Mərkəzinin həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Bəli | 71.4 | 71.4 |
| Xeyr | 28.6 | 100 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

**Cədvəl 11: "Çalışdığınız müəssisədə məlumat lövhələri və işarələri tibbi turistlər üçün başadüşüləndi?" sualına Bubnovski Onurğa Mərkəzinin həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Bəli | 78.6 | 78.6 |
| Qismən | 7.1 | 85.7 |
| Xeyr | 14.3 | 100 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bubnovski Onurğa Mərkəzi həkimlərinin 78.6%-i bu suala bəli,7.1%-i qismən və 17.3%-i xeyr cavabı verdi.

**Cədvəl 12: Tibbi turistə müalicəsonrası gəzinti və səyahət turları təklif edirsizmi? sualına Bubnovski Onurğa Mərkəzinin həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Bəli | 78.6 | 78.6 |
| Xeyr | 21.4 | 100 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

Bubnovski Onurğa Mərkəzi həkimlərinin 78.6%-i bu suala bəli,21.4%-i xeyr cavabı verdi.

**Cədvəl 13: "Müəssisənizdə əngəlli tibbi turistlərin tibbi xidmətlərdən yararlanması üçün şərait varmı?" sualına Bubnovski Onurğa Mərkəzinin həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
| Bəli | 71.4 | 71.4 |
| Bəzi çatışmazlıqlar var | 21.4 | 92.8 |
| Xeyr | 7.1 | 100 |
| Cəmi | 100 | |

**Mənbə**: Sorğunun nəticəsinə əsasən müəllif tərəfindən tərtib edilib.

**Cədvəl 14: "Çalışdığınız müəssisədə tibbi turistıərin sizi seçməyinə ən çox nə təsir göstərir?" sualına Bubnovski Onurğa Mərkəzinin həkimlərinin cavabları**

| Dəyər | Faiz | Kumulyativ |
|---|---|---|
